**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NAXÇIVAN BÖLMƏSİ**

*Əlyazması hüququnda*

**VİDADİ AYDIN OĞLU MURADOV**

# XVIII-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ NAXÇIVAN DİYARINDA SƏNƏTKARLIQ VƏ TİCARƏT

**İxtisas: 5503.02 – Vətən tarixi**

**Tarix üzrə elmlər doktoru elmi dərəcəsi almaq**
**üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2018**

Dissertasiya işi AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunda yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** **İ.M.Hacıyev**
AMEA-nın həqiqi üzvü

**Rəsmi opponentlər:** **O.B.Sultanov**
Tarix üzrə elmlər doktoru, professor

**C.M.Mustafayev**
Tarix üzrə elmlər doktoru, professor

**Q.Ə.Əliyev**
Tarix üzrə elmlər doktoru, professor

**Aparıcı təşkilat:** **Naxçıvan Dövlət Universitetinin “Azərbaycan tarixi” kafedrası**

Müdafiə 30 may 2018-ci il tarixdə saat ___-da AMEA-nın Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən D.01.211 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, akt zalı.

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin elektron kitabxanasında tanış olmaq olar.

Avtoreferat “____” ________ 2018-ci ildə göndərilmişdir.

**D.01.211. Dissertasiya Şurasının elmi katibi:** **E.A.Şıxəliyev**
Tarix üzrə fəlsfə doktoru, dosent

## I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan diyarı olduqca şərəfli, eyni zamanda çətin və mürəkkəb inkişaf yolu keçmişdir. Ulu öndər Heydər Əliyev 1996-cı il iyulun 11-13-də Naxçıvanda keçirilmiş beynəlxalq simpoziumun iştirakçılarına müraciətində yazmışdı: "Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus mühüm rol oynamış və oynamaqda olan Naxçıvanın qədim və zəngin tarixi vardır. Hər daşı, qayası tarixin canlı şahidi olmuş bu torpaq bir çox dünya şöhrətli alim və mütəfəkkirin, memar və ədibin, dövlət xadimi və sərkərdənin vətəni olmuşdur. Onların fəaliyyəti və irsinin bəşər tarixində rolu danılmazdır".[1] Qədim insan məskənlərinin yarandığı ilk ərazilərdən olan bu diyar sonralar Azərbaycanın dövlətçilik tarixində mühüm rol oynamışdır. Naxçıvan diyarı ilk mərkəzləşdirilmiş qədim Azərbaycan dövləti olan Mannanın, sonralar isə Atropatena və Albaniyanın ictimai-siyasi, iqtisadi həyatında mühüm rol oynamışdır.

Naxçıvan diyarı yalnız Azərbaycanın deyil, eləcə də bütün Yaxın və Orta Şərqin həyatında mühüm hadisə olan Atabəylər dövlətinin (1136-1225) yaranmasında və inkişafında xüsusi rola malik olan bölgələrdən biridir. Müəyyən müddətdə Azərbaycan Atabəylər dövlətinin paytaxtı olmuş Naxçıvan şəhəri Şərqin ən inkişaf etmiş elm və mədəniyyət mərkəzlərindən birinə çevrilmişdi. Bu dövrdə yaşamış görkəmli memar Əcəmi Əbu Bəkr oğlu Naxçıvaninin yaratdığı tikililər kamil sənət nümunələri kimi dünya memarlığının incilərinə çevrilmişdir. Atabəylər dövründə Naxçıvan şəhəri həm də Şərqin mühüm ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmışdı. Böyük İpək Yolu üzərində əlverişli coğrafi mövqe tutan şəhər Şərqlə Qərb arasında gedən tranzit ticarətdə fəal iştirak edirdi. Bu dövrdə naxçıvanlı sənətkarların istehsal etdikləri yüksək keyfiyyətli məmulatlar yerli tələbatı ödəməklə yanaşı, xarici ölkələrə də ixrac edilirdi. Bu ənənə sonrakı əsrlərdə də davam etmişdi.

Monqol hücumlarından sonra Naxçıvan diyarı vaxtaşırı olaraq ciddi dağıntılara məruz qalmağa başladı. Doğrudur, hər dağıntıdan sonra Naxçıvan əhalisi özündə güc taparaq dağıntıların nəticələrini aradan qaldırır, əkinçiliyin, sənətkarlığın və ticarətin inkişafını bərpa etməyə müvəffəq olurdu. Lakin XVIII əsrin əvvəllərində baş vermiş Səfəvi-Osmanlı müharibələri di-

---

[1]Naxçıvan tarixinin səhifələri. "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun materialları. Bakı, 1996, s. 3

yara elə ağır zərbə vurdu ki, onun nəticələrini aradan qaldırmaq mümkün olmadı. XVII əsrin sonlarında Səfəvilər dövlətini bürümüş dərin iqtisadi tənəzzül, bütün XVIII əsrdə və XIX əsrin əvvəllərində qısa fasilələrlə baş vermiş ara müharibələri və yadelli hücumlar diyarın iqtisadi tənəzzülünü daha da dərinləşdirdi. Vaxtilə Şərqin ən böyük ticarət, sənətkarlıq və mədəniyyət mərkəzlərindən biri olmuş Naxçıvan şəhəri özünün əvvəlki əzəmətini itirərək Azərbaycanın kiçik şəhərlərindən birinə çevrildi.

1828-ci ildə bağlanmış Türkmənçay müqaviləsinə görə, Naxçıvan diyarı Rusiya imperiyasının tərkibinə qatıldı. Uzun müddət diyarı viran qoyan müharibələrə son qoyuldu, dinc quruculuq işləri üçün əlverişli şərait yarandı. Lakin çar hökumətinin yeritdiyi amansız müstəmləkəçilik siyasəti hər vasitə ilə yerli istehsalın qarşısını alır, Azərbaycanın digər bölgələri kimi, Naxçıvan diyarını da Rusiyanın xammal bazasına çevirirdi.

Rus müstəmləkəçiliyi dövrü Naxçıvan diyarını daha bir bəla ilə - erməni bəlası ilə üzbəüz qoydu. İşğal etdiyi ərazilərdə özünə xristianlardan ibarət dayaq yaratmaq siyasəti yürüdən Rusiya hökuməti Azərbaycan torpaqlarına kütləvi şəkildə ermənilərin köçürülməsinə başladı. Köçkün ermənilərin bir hissəsi Naxçıvan torpaqlarında yerləşdirildi. Çarizmin hərtərəfli dəstəyi ilə yeni yerlərdə möhkəmlənən ermənilər tarixi Azərbaycan torpaqlarına qarşı ərazi iddiaları irəli sürür, yerli əhaliyə qarşı soyqırımı törədirdilər.[2]

Ermənilər Azərbaycana, o cümlədən Naxçıvana qarşı ərazi iddialarını sovet hakimiyyəti illərində reallaşdırmağa müvəffəq oldular. Tarixi Azərbaycan torpaqlarının – İrəvan xanlığının ərazisi hesabına özlərinə dövlət yaradan bədnam qonşularımız Azərbaycan torpaqlarını addım-addım ələ keçirdilər. Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə 1929-1930-cu illərdə Ordubad və Zəngilan rayonlarına məxsus xeyli Azərbaycan torpağı Ermənistana verildi. Təkcə 1929-cu ildə Naxçıvandan alınıb Ermənistana verilən ərazilərin ümumi sahəsi 657 $km^2$ təşkil edirdi.[3] Ələ keçirilmiş ərazilərdə Ermənistanın tərkibində Mehri rayonunun təşkil edilməsilə Naxçıvan diyarı Azərbaycanın əsas torpaqlarından ayrı salındı. Ulu öndər Heydər Əliyevin dediyi kimi, "Ermənistanın Naxçıvanla bağlı ərazi iddiaları sonrakı dövrlərdə də davam etmiş və indi də bu çirkin niyyətlərindən əl çəkmir".[4]

Ermənilər özlərinin Naxçıvan torpaqlarına olan iddialarını əsaslandır-

---

[2] Kazımov İ. Naxçıvan: əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair. 1828-1920-ci illər. Bakı: Elm, 2007, s.17

[3] Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı: Elm, 2008, s.7

[4] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Məktublar. Müsahibələr. Məruzələr. Müraciətlər. Fərmanlar. XIX c. Bakı: Azərnəşr, 2006, s.114

maq üçün yalançı “tarixi faktlara” əsaslanır, bu yolla özlərinin çirkin niyyətlərinə haqq qazandırmağa çalışırlar. Bu isə Azərbaycan tarixçiləri qarşısında erməni yalanlarını ifşa etmək, diyarın tarixinin bütün dövrlərini və bütün məsələlərini obyektiv şəkildə işləyib dünya ictimaiyyətinə çatdırmaq kimi mühüm vəzifə qoyur. Məhz bunları nəzərdə tutan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tarixçiləri erməni yalanlarını ifşa etməyə çağıraraq demişdir: “Azərbaycandan qismən tədric olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq məcburiyyətində qalan, tez-tez bədnam qonşuların ərazi iddialarının obyektinə çevrilən Naxçıvanın tarixinin hələ də tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan bu diyarının tam dolğun, obyektiv tarixi xalqımıza, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir”.[5]

Azərbaycan Respublikası Prezidentinin bu çağırışı Naxçıvan diyarının XVIII-XX əsrin əvvəllərində sosial-iqtisadi həyatının bir çox problemlərinin, o cümlədən şəhər həyatının, ticarətin və sənətkarlığın vəziyyətinin daha dərindən tədqiq edilməsini zəruri edir. Orta əsrlər dövründə özünün zəngin şəhər həyatı, yüksək keyfiyyətli sənətkarlıq məhsulları və geniş ticarət əlaqələri ilə məşhur olan Naxçıvan diyarında tədqiq olunan dövrdə xeyli geriləmə müşahidə olunurdu. Bu geriləmənin çox mühüm elmi əhəmiyyəti olan səbəblərini və gedişini tədqiq edib ictimaiyyətin nəzərinə çatdırmaq məsələsi, təəssüf ki, indiyə qədər xüsusi tədqiqat obyektinə çevrilməmişdir.

Uzun sürən hərbi və siyasi təlatümlərin yaratdığı çətinliklərə baxmayaraq, sənət istehsalı və ticarət tədqiq olunan dövrdə də Naxçıvanın, xüsusilə şəhər əhalisinin əsas məşğuliyyət sahələrini təşkil edirdi. Bu dövrdə Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan diyarında da sənət istehsalnın ev peşəsi, sənət və xırda əmtəə isthesalı kimi formaları özünü göstərirdi. Lakin bu formaların heç də hamısının sənət istehsalındakı mövqeyi eyni deyildi. Yeni yaranmaqda olan kapitalist münasibətlərinin təsiri altında sənətkarlıqda xırda əmtəə istehsalının mövqeləri, ləng də olsa möhkəmlənirdi. Bu prosesin tədqiq edilməsi Azərbaycan tarixşünslığında həllini gözləyən vacib problemlərdən biridir.

Naxçıvan diyarının uzun müddət beynəlxalq ticarət yolları üzərində

---

[5] Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 9 fevral, 2004-cü il. https://azertag.az/xeber/naxchivan_muxtar_respublikasinin_80_illik_yubileyinin_kechirilmasi_haqqinda_azarbaycan_respublikasi_prezidentinin_sarancami-305832

əlverişli mövqeyə malik olması onun xarici ticarət əlaqələrinin inkişafına güclü təkan vermişdi. Lakin tədqiq olunan dövrdə bu sahədə vəziyyət xeyli dəyişmişdi. Həmin dəyişikliklərin səbəblərini və tendensiyasını araşdırıb müəyyən etmədən XVIII-XX əsrin əvvəllərində Naxçıvan diyarının iqtisadi həyatının bütöv mənzərəsini yaratmaq mümkün deyildir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Təqdim olunan dissertasiya işinin xronoloji çərçivəsi müəyyənləşdirilərkən bütün XVIII-XX əsrin əvvəllərində Naxçıvan diyarında sənət istehsalı və ticarətin inkişafına ciddi təsir göstərmiş siyasi və sosial iqtisadi vəziyyətin xüsusiyyətləri əsas götürülmüşdür. Göstərilən xronoloji çərçivə daxilində Naxçıvan diyarı müxtəlif dövlətlərin tərkibində olsa da, bölgədə sənətkarlıq və ticarətin inkişafı üçün elə də əlverişli olmayan sosial-iqtisadi münasibətlər, əsasən, dəyişilməz qalmışdır.

**Mövzunun öyrənilmə səviyyəsi.** XVIII-XX əsrin əvvəllərində Naxçıvan diyarında sənətkarlıq və ticarət probleminin mühüm elmi əhəmiyyət kəsb etməsinə baxmayaraq, o indiyə qədər xüsusi tədqiqat obyekti olmamışdır. Bu məsələdə mənbə xarakterli materialların azlığı və ziddiyyətli olması heç də az rol oynamamışdır. Lakin problemin indiyə qədər tamamilə diqqətdən kənarda qalması fikrini də irəli sürmək olmaz. Azərbaycan tarixçilərinin istər ümumazərbaycan səciyyəsi daşıyan, istərsə də ancaq Naxçıvan diyarının tarixinə həsr olunmuş əsərlərində tədqiq olunan mövzunun müxtəlif dövrləri və tərəfləri işıqlandırılmışdır.

Müəyyənləşdirilmiş xronoloji çərçivədə tədqiq olunan dövrdə mövzu ilə daha yaxın olan Naxçıvan diyarının tarixinə həsr olunmuş əsərlər üzərində birinci dayanmaq istərdik. Belə əsərlərdən biri 1986-cı ildə M.M.Əliyev tərəfindən müdafiə edilmiş namizədlik dissertasiyasıdır.[6] Əsas diqqəti Naxçıvan xanlığının siyasi həyatının işıqlandırılmasına yönəldən müəllif, həm də bölgənin sosial-iqtisadi həyatının bizim tədqiqatla bilavasitə bağlı olan şəhər həyatı, ticarət və sənətkarlıq kimi məsələlərinə də toxunmuşdur.

Tədqiq olunan mövzunun xanlıqlar dövrü tarixinin tədqiqi zamanı F.Əliyev və M.Əliyev tərəfindən yazılmış "Naxçıvan xanlığı" əsərindən geniş istifadə olunmuşdur.[7] Arxiv və çap olunmuş mənbələr əsasında yazılmış bu əsərdə müəlliflər əsas diqqəti Naxçıvan xanlığının siyasi tarixinin işıqlandırılmasına yönəltmişlər. Burada həmçinin xanlığın sosial-iqtisadi həyatının müxtəlif məsələlərinə, o cümlədən torpaq mülkiyyət formaları, əhalinin sosial tərkibi, əhalidən toplanan vergilər, şəhər həyatı, ticarət və sənətkarlıq kimi

---

[6] Алиев М.М. Нахичеванское ханство и его присоединение к России. Баку: АКД, 1986, 25 с.

[7] Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı: Azərnəşr, 1996, 106 s.

məsələlərə də toxunulmuşdur. Bununla belə, haqqında danışılan bu əsərdə Naxçıvan xanlığında sənətkarlıq və ticarətin vəziyyəti haqqında verilən məlumatlar əksər hallarda səthi xarakter daşıyır. Lakin əsərin siyasi məsələlərə həsr olunmuş bölmələri kifayət qədər yüksək səviyyədə yazıldığından, sonralar meydana gəlmiş bir çox tədqiqat və ümumiləşdirici əsərlər üçün, bir növ baza rolunu oynamışdır.

Naxçıvan diyarının XVIII-XX əsrin əvvəllərində sosial-iqtisadi həyatının daha intensiv tədqiq olunmasına ümummilli lider Heydər Əliyevin və onun layiqli davamçısı İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 1999-cü ildə 75 illik, 2004-cü ildə 80 illik, 2009-cu ildə 85 illik və 2014-cü ildə 90 illik yubileylərinin keçirilməsi ilə əlaqədar imzaladıqları sərəncamlar güclü təkan vermişdir. Təkcə o faktı göstərmək kifayətdir ki, son illərdə diyarın ictimai-siyasi və mədəni həyatının müxtəlif məsələlərinə dair 40-dan artıq beynəlxalq və respublika əhəmiyyətli konfrans, simpozium keçirilmişdir. Azərbaycan MEA-nın Naxçıvan Bölməsi bu istiqamətdə daha səmərəli fəaliyyət göstərmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun hərtərəfli dəstəyinə arxalanan Bölmə əməkdaşları akademik İsmayıl Hacıyevin rəhbərliyi ilə diyarın ictimai-siyasi, mədəni həyatının müxtəlif tərəflərinə aid bir sıra fundamental nəşrlər hazırlayıb çap etdirmişlər. Bunların içərisində 2005-ci ildə nəşr olunmuş iki cildlik “Naxçıvan ensiklopediyası”nı,[8] 2008-ci ildə nəşr edilmiş üçcildlik “Naxçıvan abidələri ensiklopediyası”nı[9] və 2013-2015-ci illərdə nəşr olunmuş üçcildlik “Naxçıvan tarixi”ni[10] xüsusi vurğulamaq lazımdır. Bu əsərlərdə Naxçıvan diyarının XVIII-XX əsrin əvvəllərində sosial-iqtisadi tarixinə, daha konkret olaraq, şəhər həyatı, ticarət və sənətkarlıq məsələlərinə dair zəngin faktiki materiallar verilmişdir.

Azərbaycan MEA-nın müxbir üzvü, professor Y.Mahmudov və professor K.Şükürov tərəfindən yazılmış “Naxçıvan: tarixi və abidələri”[11] adlı əsəri Naxçıvan tarixinin öyrənilməsi istiqamətində mühüm addım adlandırmaq olar. Çox böyük xronoloji çərçivəni əhatə edən bu əsərdə öyrənilən dövrdə diyarda baş vermiş ictimai-siyasi proseslərin və memarlıq abidələrinin öyrənilməsinə xüsusi diqqət yetirilmişdir.

Naxçıvan diyarının XIX-XX əsrin əvvəlləri tarixinin tədqiq edil-

---

[8] Naxçıvan ensiklopediyası: 2 cilddə, I-II cildlər, Naxçıvan, 2005, 356 s., 382 s.

[9] Naxçıvan abidələri ensiklopediyası. İstanbul: Bakanlar Medya, 2008, 519 s.

[10] Naxçıvan tarixi: 3 cilddə, I-III c., Naxçıvan: Əcəmi, 2013-2015, 452 s., 528 s., 560 s.

[11] Mahmudov Y., Şükürov K. Naxçıvan: tarixi və abidələri. Bakı: Təhsil, 2007, 216 s.

məsində Azərbaycan MEA-nın müxbir üzvü, professor Z.Şahverdiyevin tədqiqatları mühüm rol oynamışdır. Onun bu dövrün müxtəlif problemlərinə həsr olunmuş çoxsaylı əsərləri arasında bizim tədqiqatımız üçün daha əhəmiyyətlisi "Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində" adlı monoqrafiyası olmuşdur.[12] Tədqiqatçı bu əsərində tədqiq etdiyi xronoloji çərçivə daxilində Naxçıvan diyarının sosial-iqtisadi həyatının, demək olar ki, bütün məsələlərinə toxunmuş, onları ətraflı şəkildə işıqlandırmışdır. Onun Naxçıvan diyarının inzibati-ərazi quruluşu, kənd təsərrüfatı, ticarət yollarının və ticarətin, sənət istehsalının vəziyyəti, həmçinin əhalinin sayı, sosial və milli tərkibi haqqında verdiyi statistik məlumatlar təqdim etdiyimiz dissertasiyanın faktoloji bazasının xeyli zənginləşməsinə kömək etmişdir.

Tədqiqatçı S.Budaqova Naxçıvan diyarının xanlıqlar dövrü tarixinin tədqiqinə 2 əsər həsr etmişdir.[13] Müəllif hər iki əsərində Naxçıvan xanlığının inzibati-ərazi bölgüsü, əhalinin əsas məşğuliyyət sahələri olan əkinçilik, maldarlıq, ticarət və sənətkarlıq kimi məsələlərinin, habelə Naxçıvan və Ordubad şəhərlərinin iqtisadi həyatının bizim tədqiqatla bağlı olan problemlərinin işıqlandırılmasına xeyli diqqət ayırmışdır.

Azərbaycan tarixşünaslığında Naxçıvan diyarının şəhərləri arasında Ordubad şəhərinin tarixinə daha çox əsər həsr olunmuşdur. Belə əsərlər içərisində X.Vahidovanın XIX-XX əsrin əvvəllərində Ordubad şəhərinin tarixinə həsr olunmuş monoqrafiyasını xüsusi qeyd etmək lazımdır.[14] Müəllif öz əsərini yazarkən çoxlu sayda dövrü mətbuat materiallarından, çap olunmuş mənbələrdən və Rusiya Dövlət Hərbi Tarix Arxivinin müxtəlif fondlarında saxlanılan sənədlərdən istifadə etmişdir. Əsərin diqqəti çəkən əsas məqamlarından biri Ordubad şəhərində sənət istehsalının xammal bazasına əsasən qruplaşdırılması və ayrı-ayrı sənət növlərinin xarakterində baş vermiş dəyişikliklərin izlənilməsidir. Müəllif öz əsərində Ordubad şəhərində daxili ticarətin vəziyyətinə və xarici ticarət əlaqələrinə də kifayət qədər yer ayırmışdır.

Ordubad şəhərinin iqtisadi həyatının bir çox məsələləri A.S.Fərəcovun əsərində də işıqlandırılmışdır.[15] Onun Ordubad şəhərində mövcud olmuş bazarlar, karvansaralar, ticarət və sənətkar dükanları, məscidlər haqqında

---

[12] Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı: Elm, 2008, 264 s.

[13] Budaqova S. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin II yarısı-XIX əsrin I qərinəsi). Bakı: Elm, 1995, 95 s.; Yenə onun. Naxçıvan diyarının siyasi tarixi. Bakı: Elm və Təhsil, 2014, 112 s.

[14] Ваидова Х. История города Ордубад в XIX - начале X вв. Баку: Нурлан, 2007, 183 с.

[15] Фараджев А.С. Ордубад. Историко-экономический очерк. Баку: Азербайджанское государственное издательство, 1970, 151 с.

verdiyi məlumatlar bizim tədqiqatın uyğun bölmələrinin yazılması zamanı istifadə edilmişdir. Bununla bərabər, qeyd etmək lazımdır ki, nə X.Vahidova, nə də A.Fərəcov öz əsərlərini yazarkən çar məmurlarının XIX əsrin 30-cu illərində tərtib etdikləri kameral təsvirlərdən istifadə etməmişlər.

Tədqiq etdiyimiz mövzunun bəzi tərəflərinə A.Paşayevin etnoqrafik xarakter daşıyan əsərində də[16] toxunulmuşdur. Müəllifin burada ayrı-ayrı sənət sahələrinin Ordubad şəhərindəki inkişaf dinamikası haqqında irəli sürdüyü fikirlər xeyli maraq doğurur. Onun XIX əsrin 60-cı illərindən başlayaraq ipək parça istehsalının Ordubad şəhərində tamamilə tənəzzülə uğraması fikri həmin dövrə aid yazılı mənbələrdə verilmiş məlumatlarla da təsdiq olunur.

Tədqiq etdiyimiz mövzunun müəyyən dövrlərinə və məsələlərinə ümumazərbaycan səciyyəsi daşıyan əsərlərdə də toxunulmuşdur. Bu baxımdan Azərbaycanın XIX əsr iqtisadi tarixinin görkəmli tədqiqatçısı akademik Ə.S.Sumbatzadənin fundamental xarakter daşıyan əsərlərini[17] xüsusi qeyd etmək lazımdır. Onun bütün Azərbaycan miqyasında sənət istehsalınn təkamül tarixinə, bu istehsalın hər bir pilləsinin xarakterik xüsusiyyətlərinə həsr olunmuş elmi-nəzəri müddəaları monoqrafiyanın elmi strukturunun müəyyənləşdirilməsinə, habelə Naxçıvan diyarında qeydə alınmış sənət sahələrindən hər birinin inkişaf dinamikasında müşahidə edilən dəyişikliklərin baş vermə səbəblərinin araşdırılmasına yardımçı olmuşdur. Onu da qeyd etmək lazımdır ki, Ə.S.Sumbatzadənin "Azərbaycan sənayesi XIX əsrdə" adlı monoqrafiyasında verilmiş zəngin faktiki materiallardan dissertasiyanın müvafiq bölmələrinin yazılması zamanı istifadə olunmuşdur.

Azərbaycanın XVIII əsr tarixinin müxtəlf məsələlərinin tədqiq edilməsində F.M.Əliyevin böyük xidmətləri olmuşdur. Onun Şimali Azərbaycan şəhərlərinin tarixinə həsr olunmuş monoqafiyasında,[18] yeri gəldikcə Naxçıvan və Ordubad şəhərlərinin vəziyyətinə toxunulmuşdur. Ümumiyyətlə götürdükdə, müəllif adları çəkilən şəhərlər də daxil olmaqla, Azərbaycan şəhərlərinin XVIII əsrin ikinci yarısında sosial-iqtisadi həyatının idarəçilik, əhalinin sayı və sosial tərkibi, sənətkar təşkilatlarının vəziyyəti, daxili və xarici ticarət kimi mühüm məsələlərinin xarakteristikasını vermişdir.

---

[16] Пашаев А. Город Ордубад в XIX-начале XX вв. (Историко-этнографическое исследование). Баку: Элм, 1998, 200 с.

[17] Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX в. Баку: Изд-во АН Азерб. ССР, 1958, 364 с.; Yenə onun. Промышленность Азербайджана в XIX в. Баку: Изд-во АН Азерб. ССР, 1964, 501 с.

[18] Əliyev F.M. Şimali Azərbaycan şəhərləri. Bakı: Elm, 1960, 135 s.

Azərbaycanda sənətkarlıq tarixinin öyrənilməsində tədqiqatçı-alim C.M.Mustafayevin "Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq"[19] adlı monoqrafiyasını mühüm addım hesab etmək olar. Müəllif öz əsərini yazarkən Rusiya Federasiyasının müxtəlif arxivlərində və Azərbaycan Respublikasının Dövlət Tarix Arxivində saxlanılan külli miqdarda sənədləri və çap olunmuş mənbələri dövriyyəyə cəlb etmiş, xanlıqlar dövründə Azərbaycanda sənət istehsalının vəziyyətinin bütöv mənzərəsini yaratmağa nail olmuşdur. Bu mənbələrə əsaslanan müəllif, yeri gəldikcə Naxçıvan diyarında şəhərlərin və sənət istehsalının vəziyyəti haqqında da xeyli məlumat vermişdir.

Professor T.T.Mustafazadənin "Naxçıvan vilayəti XVIII yüzillikdə"[20] adlı böyük həcmli məqaləsində Naxçıvan diyarında cərəyan etmiş siyasi hadisələrlə yanaşı, kənd təsərrüfatı, inzibati ərazi bölgüsü, əhalinin sayı və etnik tərkibi, şəhər həyatı kimi məsələlərin tədqiq olunmasına xeyli yer ayrılmışdır.

Dissertasiyanın yazılması zamanı ayrı-ayrı məsələlərin işıqlandırılması ilə əlaqədar olaraq ümumazərbaycan səciyyəsi daşıyan daha bir neçə əsərə müraciət edilmişdir. Tədqiqatçı Q.Əliyev özünün XIX-XX əsrin əvvəllərində Azərbaycanda nəqliyyatın vəziyyətinə həsr olunmuş əsərlərində[21] yeri gəldikcə, Naxçıvan diyarında ticarət yollarının vəziyyəti, Uluxanlı-Culfa dəmir yolu xəttinin çəkilməsindən sonra diyarın xarici ticarət əlaqələri və Rusiya-İran tranzit ticarətində tutduğu mövqenin güclənməsi haqqında xeyli mənbə materialı aşkar edərək elmi dövriyyəyə daxil edilmişdir. Azərbaycanın XIX əsrin sonu-XX əsrin əvvəlləri tarixinin görkəmli tədqiqatçısı T.T.Vəliyevin əsərində[22] Naxçıvan iqtisadiyyatının bir çox məsələlərinə, o cümlədən ipəkçiliyin və duz istehsalının vəziyyətinə toxunmuşdur. Professor E.B.Muradəliyevanın XIX əsrin ikinci yarısında Şimali Azərbaycan şəhərlərinin tarixinə həsr olunmuş monoqrafiyasında[23] bu dövrdə Naxçıvan və Ordubad şəhərlərində yaşayan əhalinin sayı, sosial və milli tərkibi də işıqlandırılmışdır. Müəllifin 1897-ci ildə keçirilmiş birinci ümumrusiya siyahıya alınmasının materialları əsasında tərtib etdiyi cədvəllər dissertasiyanın bu məsələlərdən bəhs edən bölmələrinin yazılması üçün faydalı olmuşdur.

---

[19] Mustafayev C.M. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı: Elm, 2002, 272 s.

[20] Mustafazadə T.T. Naxçıvan vilayəti XVIII yüzillikdə / Naxçıvan Muxtar Respublikası (Məqalələr toplusu). Bakı: Elm, 1999, 373 s.

[21] Əliyev Q. XIX-XX əsrin başlanğıcında Şimali Azərbaycanda nəqliyyatın inkişafı. Bakı: BDU, 1995, 115 s.; Yenə onun. Azərbaycan nəqliyyatı və iqtisadiyyatı. Bakı: Elm, 2001, 244 s.

[22] Велиев Т. Т. Промышленность и пролетариат Азербайджана в эпоху империализма. Баку: Элм, 1987, 256 с.

[23] Мурадалиева Э.Б. Города Северного Азербайджана во второй половине XIX века. Баку: Изд-во Бакин. ун-та, 1991, 172 с.

Tədqiq olunan dövrdə Naxçıvan diyarının sosial-iqtisadi həyatında gedən proseslərin mahiyyətini düzgün başa düşüb qiymətləndirmək bir çox hallarda əvvəlki dövrlərdə, xüsusilə XVI-XVII əsrlərdə bölgədə baş vermiş oxşar prosesləri bilmədən mümkün deyildir. Bu baxmdan Azərbaycanın son orta əsrlər tarixinin görkəmli tədqiqatçıları R.Məmmədovun,[24] Ə.Rəhmaninin,[25] M.Heydərovun,[26] T.Nəcəflinin[27] və başqalarının əsərləri xüsusilə əhəmiyyətli olmuşdur. Məhz bu əsərlərdə verilmiş materiallar bizə tədqiq olunan dövrün əvvəllərində, daha doğrusu, XVIII əsrin başlanğıcında Naxçıvan diyarının şəhər həyatında, ticarət və sənətkarlıqda müşahidə edilən dərin tənəzzülün tarixi köklərini aydınlaşdırmağa kömək etmişdir.

Tədqiq olunan problemin ayrı-ayrı məsələlərinin araşdırılması zamanı etnoqrafların,[28] memarların,[29] sənətşünasların,[30] epiqrafika mütəxəssislərinin[31] istər ümumazərbaycan səciyyəsi daşıyan, istərsə də ancaq Naxçıvan diyarına həsr olunmuş əsərlərindən istifadə olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Problemin tarixşünaslığı ilə əlaqə-

---

[24] Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı: Elm, 1977, 158 s.

[25] Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке. Баку: Элм, 1981, 238 с.

[26] Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII- XVII вв. Баку:Элм, 1982, 281 с.

[27] Nəcəfli T.H. Səfəvi-Osmanlı müharibələri və Naxçıvan (XVI-XVII əsrin əvvəlləri) // Naxçıvan Muxtar Respublikası. Bakı: Elm, 1999, 181 s.; Yenə onun. XV-XVII yüzilliklərdə Naxçıvanın ictimai-iqtisadi və mədəni həyatı // Şah İsmayıl Xətai. IV Elmi-praktik konfransın materialları. Bakı. AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, 2007, s. 31-34.

[28] Azərbaycan etnoqrafiyası: 3 cilddə, I c., Bakı: Elm, 2007, 544 s.; Həvilov H.A. Azərbaycan etnoqrafiyası. Bakı: Elm, 1991, 256 s.; Mustafayev A.N. Azərbaycanda sənətkarlıq. Bakı: Altay, 1999, 440 s.; Yenə onun. Azərbaycanın maddi-mədəniyyət tarixi (etnoqrafik tədqiqatlar əsasında tipoloji tədqiqat). Bakı: Bakı Universiteti Nəşriyyatı, 2009, 420 s.; Воронков Н. В. Крашение шерстяной ковровой пряжи прочными красками // Производство ковров. М: Издательство КОИЗ, 1931; Петров В.А. Опыт классификации красильных растений и растительных красок южной части НКАО. //Труды института Ботаники Аз.ФАН СССР. т. VI, 1939

[29] Qiyasi C. Nizami dövrü memarlığı abidələri. Bakı: Elm, 1991, 264 s.; Salamzadə Ə., Məmmədzadə K. Arazboyu abidələri. Bakı: Elm, 1979, 295 s.; Yenə onların. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri. Bakı: Elm, 1985, 191 s.

[30] Əfəndiyev R. Azərbaycanın bədii metal sənətkarlığı məmulatı və zərgərlik. Bakı: Azərnəşr, 1966, 38 s.; Əliyeva A. Azərbaycan xalçalarının bədii xüsusiyyətləri. //Azərb. SSR EA Xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası, 1967; Əliyeva G. Azərbaycanın bədii parçaları və tikmələri. Bakı: Elm, 1990, 188 s.; Rasim Əfəndi. Azərbaycanın bədii parçaları (XVI-XVIII əsrlər). //Azərb. SSR EA Xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası, 1968, №3; Бретаницкий Л., Саламзаде А. История архитектуры Азербайджана. Москва: Стройиздать, 1963, 396 с. və s.

[31] Neymətova M.S. Azərbaycanın epiqrafik abidələri (XVI-XVIII əsrlər), Bakı: Azərb.SSR EA nəşriyyatı,1961, 157 s.; Səfərli H. Ordubad şəhərinin epiqrafik abidələri. Bakı: Elm, 2001, 80 s.; Yenə onun. Culfa bölgəsinin epiqrafik abidələri. Bakı: Elm, 2002, 80 s.; Yenə onun. Orta əsrlərdə Naxçıvanın sosial-iqtisadi həyatında dini mərkəzlərin rolu. Bakı: Elm, 2003, 392 s.; Yenə onun. Adları epiqrafik abidələrdə aşkar edilmiş görkəmli şəxsiyyətlər (Naxçıvan materialları əsasında) // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2006, №2, s. 10-16.; Неймат М. Корпус эпиграфических памятников Азербайджана. т. III, Баку: XXI- Yeni Nəşrlər Evi, 2001, 216 c.

dar aparılan xülasə göstərir ki, tədqiqat üçün xronoloji çərçivə kimi seçilmiş XVIII-XX əsrin əvvəllərində Naxçıvan diyarında sənətkarlıq və ticarətin vəziyyətinə toxunan xeyli sayda əsər yazılmışdır. Lakin bu əsərlərdə tədqiqat obyekti kimi seçdiyimiz problemin yalnız müəyyən dövrü və tərəfləri işıqlandırılmışdır. Daha dəqiq desək, XVIII-XX əsrin əvvəllərində Naxçıvan diyarında sənətkarlıq və ticarətin vəziyyəti indiyə qədər xüsusi tədqiqat obyekti olmamışdır. Azərbaycan tarixşünaslığında mövcud olan bu vəziyyəti nəzərə alaraq, biz qarşımıza problemi kompleks şəkildə araşdırmaq və bu sahədə mövcud olan boşluğu aradan qaldırmaq vəzifəsi qoymuşuq.

Tədqiqat obyekti kimi seçilmiş problemin indiyə qədər xüsusi tədqiqat obyekti olmadığını, həmçinin onun Azərbaycan tarixşünaslığı üçün əhəmiyyətini və aktuallığını nəzərə alaraq, yuxarda göstərilən əsas məqsədə çatmaq üçün aşağıdakı konkret vəzifələri həll etməyə cəhd göstərmişik:

- XVIII-XX əsrin əvvəllərində Naxçıvan diyarında təşəkkül tapmış siyasi vəziyyətin sənət istehsalının və ticarətin inkişafına təsirini araşdırmaq;
- Naxçıvan diyarında sənət istehsalının və ticarətin əsas mərkəzləri olan Naxçıvan və Ordubad şəhərlərinin tədqiq olunan dövrdəki vəziyyətini işıqlandırmaq, onların iqtisadi həyatında müşahidə edilən tənəzzülün səbəblərini müəyyənləşdirmək;
- Naxçıvan və Ordubad şəhərlərinin bölgənin sənət istehsalında və ticarət əlaqələrində tuduqları mövqeyə aydınlıq gətirmək;
- sənət istehsalının inkişafının mühüm şərtlərindən olan xammal bazasının vəziyyətini işıqlandırmaq;
- XIX əsrin ikinci yarısından başlayaraq Naxçıvan diyarında şəhər sənətkarlığının tənəzzülü şəraitində kənd sənətkarlığının inkişafını şərtləndirən səbəbləri müəyyənləşdirmək;
- Sənət istehsalının kənd təsərrüfatı məhsullarının və təbii xammal ehtiyatlarının emalı ilə bağlı olan sahələrinin vəziyyətini işıqlandırmaq;
- Diyarda tədqiq olunan dövrdə ayrı-ayrı sənət sahələrinin və bütövlükdə sənət istehsalının xarakterində baş vermiş dəyişiklikləri aşkar etmək;
- Diyarın daxili və xarici ticarətinin inkişafında mühüm rol oynayan ticarət yollarının vəziyyətini tədqiq etmək;
- Naxçıvan diyarının xarici ticarət əlaqələrini və tranzit ticarətdə tutduğu mövqeni işıqlandırmaq.

**Tədqiqatın metodoloji əsası.** Dissertasiyanın yazılması zamanı elmi araşdırmaların aparılmasında daha çox tətbiq edilən müqayisəli təhlil metoduna üstünlük verilmişdir. Tədqiqat prosesində eyni zamanda tənqidi-analitik üsuldan, səbəb və nəticə əlaqəsi metodundan istifadə olunmuş, müasir ta-

rix elminin nailiyyətlərinə arxalanaraq müxtəlif xarakterli mənbələrin təhlili əsasında XVIII-XX əsrin əvvəllərində Naxçıvan diyarında sənət istehsalının və ticarətin vəziyyətinin obyektiv mənzərəsinin yaradılmasına cəhd göstərilmişdir.

Dissertasiyanın mənbə bazasını Azərbaycan Dövlət Tarix Arxivinin müxtəlif fondlarından toplanmış arxiv sənədləri və çap olunmuş mənbələr təşkil edir. Lakin onu da qeyd etmək lazımdır ki, Naxçıvan diyarının sosial-iqtisadi həyatına, o cümlədən sənətkarlığın və ticarətin vəziyyətinə dair mənbələr tədqiq olunan dövrün heç də bütün mərhələləri üzrə eyni dərəcədə paylanmamışdır. Belə ki, diyarın XVIII əsr tarixinin istər siyasi, istərsə də sosial-iqtisadi problemlərini özündə əks etdirən mənbələrin sayı olduqca azdır. Bu isə göstərilən dövrdə diyarın sənətkarlıq və ticarət kimi çox mühüm sahələrinin işıqlandırılması məsələsində xeyli çətinliklər yaradır. Mənbələrdə olan bu boşluğun aradan qaldırılması üçün biz dolayı materiallardan, xüsusilə XIX əsrdə tərib edilmiş mənbələrdən istifadə etmişik.

Əgər XVIII-XX əsrin əvvəllərində Naxçıvan diyarının sosial-iqtisadi həyatını özündə əks etdirən mənbələri onların yaranma ardıcıllığı ilə sıralasaq, onda türk vergi məmurlarının 1727-ci ildə tərtib etdikləri “Naxçıvan sancağının müfəssəl dəftəri”ni[32] bu istiqamətdə atılmış ilk addım kimi qiymətləndirmək olar. İstanbulda Baş Bakanlıq Arxivində saxlanılan bu dəftər uzun müddət Azərbaycan elmi ictimaiyyəti üçün əlçatmaz olmuşdur. Azərbaycan tarixşünaslığı üçün mühüm əhəmiyyəti olan bu mənbənin aşkar edilib Azərbaycana gətirilməsində və nəşr olunmasında akademik Z.M.Bünyadovun və t.ü.f.d. H.Məmmədovun böyük xidmətləri olmuşdur.

“Naxçıvan sancağının müfəssəl dəftərin”də diyarın sosial-iqtisadi həyatını özündə əks etdirən qiymətli məlumatlar cəmlənmişdir. Ayrı-ayrı yaşayış məntəqələrindən toplanan vergilərin adları və həcmi Naxçıvanda yayılmış sənət sahələrinin hansı xammal bazası əsasında inkişaf etdiyini müəyyənləşdirməyə imkan verir. “Müfəssəl dəftər”də Naxçıvan və Ordubad şəhərlərində qeydə alınmış ailələr və məhəllələr, ticarət və sənətkarlıq obyektləri haqqında verilən məlumatlar dissertasiyanın müvafiq bölmələrinin yazılmasında mühüm rol oynamışdır.

XVIII əsrin birinci yarısında Naxçıvan diyarının sosial-iqtisadi həyatı haqqında müəyyən məlumatların cəmləşdiyi mənbələrdən biri də 1725-1729-cu illərdə əfqan-gilzailərin başçısı Əşrəfin sifarişi ilə tərtib edilmiş “Təzkirət

[32] Naxçıvan sancağının müfəssəl dəftəri. Giriş və tərcümənin müəllifləri akademik Z.Bünyadov və t.e.n. H.Məmmədov. Bakı: Sabah, 1997, 336 s.

əl-muluk" əsəridir.[33] Dissertasiyanın yazılması zamanı həmin əsərdə Naxçıvan diyarının inzibati-ərazi bölgüsü, diyardan əldə edilən gəlirin mənbəyi və orduda daimi xidmətə cəlb edilən əsgərlərin sayı haqqında olan məlumatlar daha əhəmiyyətli olmuşdur.

XVIII əsrin son rübündən başlayaraq Naxçıvan diyarı haqqında rus mənbələrində də müəyyən məlumatlar meydana gəlməyə başlayır. Bu baxımdan 1783-1787-ci illərdə Rusiyanın Kartli-Kaxetiya çarlığında nümayəndəsi olmuş S.D.Burnaşevin əsəri[34] müəyyən maraq doğurur. Siyasi-coğrafi məsələlərin üstünlük təşkil etdiyi bu kiçik həcmli əsərdə Azərbaycanın digər xanlıqları kimi, Naxçıvan xanlığı haqqında da məlumatlara rast gəlmək mümkündür.

Naxçıvan diyarının sosial-iqtisadi həyatı haqqında daha mükəmməl və sistemli məlumatlar Azərbaycanın Rusiya və İran-Qacar dövlətləri arasında bölüşdürülməsinin başa çatmasından az sonra meydana gəlməyə başladı. Yeni işğal olunmuş ərazilərin tezliklə iqtisadi cəhətdən də mənimsənilməsinə can atan çar hökuməti ilk addım kimi onların kameral təsvirlərinin tərtibinə başladı. 1829-1832-ci illərdə həyata keçirilmiş həmin kameral təsvirlərin mətnləri hazırda Azərbaycan Dövlət Tarix Arxivinin fondlarında saxlanılır.[35] Bu kameral təsvirlərdə Naxçıvan diyarında qeydə alınmış əhalinin sosial və milli tərkibi haqqında qiymətli məlumatlarla yanaşı, tədqiqatımızın əsas hədəfi olan şəhər həyatı, ticarət və sənətkarlıq kimi məsələlərin işıqlandırılmasına da böyük yer ayrılmışdır.

Tədqiq olunan problemin ayrı-ayrı məsələlərinin araşdırılmasında V.Qriqoryev tərəfindən tərtib edilmiş "Naxçıvan əyalətinin statistik təsviri" müstəsna rol oynamışdır.[36] Faktiki materiallarla olduqca zəngin olan bu təsvirdə Naxçıvan diyarının siyasi və sosial-iqtisadi həyatının demək olar ki, bütün məsələlərinə dair qiymətli məlumatlar verilmişdir. Təsvirdə Naxçıvan və Ordubad dairələrinin, onların tərkibinə daxil olan hər bir mahalın ərazisi, təbii-iqlim şəraiti, çayları, torpaq örtüyü, bitki və heyvanat aləmi, faydalı qazıntıları, əhalinin sosial və milli tərkibi haqqında verilmiş məlumatlar dissertasiyanın yazılması zamanı qarşıya qoyulmuş əsas vəzifələrin yerinə

[33] Tadhkirat al-muluk. A manual of Safavid administration. Translated and explained by V.Minorsky. London: 1943, 218 p.

[34] Бурнашев С. Д. Описание областей Адребижанских в Персии и их политического состояния. Курск: Тип. Курскаго приказа общественнаго призрения, 1793, 27 с.

[35] ADTA: f.24, siy. 1, iş: 351- 372

[36] Григорьев В. Статистическое описание Нахичеванский провинции. Санкт Петербург: Типография Департамента Внешней Торговли, 1833, 264 с.

yetirilməsinə xeyli köməklik göstərmişdir. “Təsvir”də Naxçıvan diyarında mövcud olan ticarət yollarının vəziyyəti, Naxçıvan və Ordubad şəhərlərində fəaliyyət göstərən sənətkarlıq və ticarət obyektlərinin sayı, istehsal gücü, tacir və sənətkalardan toplanan vergilərin adları və həcmi, eləcə də diyarda geniş yayılmış iltizam sistemi haqqındakı məlumatlar da faydalı olmuşdur.

Naxçıvan diyarında sənət istehsalının vəziyyəti və ticarət əlaqələri haqqında İ.Şopenin əsərində də xeyli məlumata rast gəlmək mümkündür.[37] Əsərin 1852-ci ildə nəşr olunmasına baxmayaraq, orada verilmiş statistik və təsviri xarakterli məlumatlar XIX əsrin 30-cu illərinin əvvəllərindəki vəziyyəti əks etdirir. Daha dəqiq desək, İ.Şopen öz əsərini yazarkən çar hökumətinin tapşırığı ilə 1829-1832-ci illərdə keçirilmiş kameral təsvirlərin nəticələrindən bəhrələnmişdir. V.Qriqoryev kimi, İ.Şopen də öz əsərində Naxçıvan diyarının sosial-iqtisadi həyatının demək olar ki, bütün məsələləri, o cümlədən sənətkarlıq və ticarət haqqında statistik xarakterli xeyli məlumat vermişdir.

Çar hökumətinin tapşırığı ilə həyata keçirilmiş kameral təsvirlər həm də 1836-cı ildə nəşr olunmuş 4 cildlik “Qafqaz arxasındakı rus mülklərinin icmalı” adlı mənbələrdə verilmiş faktiki materialların əsasını təşkil etmişdir. Naxçıvan diyarına dair məlumatlar icmalın dördüncü cildində cəmlənmişdir.[38] Burada diyarın sosial-iqtisadi məsələləri ilə yanaşı, yeri gəldikdə onun tarixi keçmişinə də toxunulmuşdur.

XVIII əsrin ikinci yarısı-XIX əsrin əvvəllərində də Naxçıvan diyarının iqtisadi həyatına dair xeyli sayda mənbələr meydana gəlmişdir. Belə mənbələrdən biri olan “Qafqaz haqqında statistik məlumatlar məcmuəsi”ndə Naxçıvan diyarında sənətkarlıq və ticarətin vəziyyəti haqqında konkret statistik məlumatlar verilir.[39] XIX əsrin 60-cı illərinə aid olan bu məlumatlarda Naxçıvan və Ordubad şəhərlərində yaşayan əhalinin ümumi sayı, onun sosial və milli tərkibi, məşğuliyyət sahələri göstərilməklə sənətkarların sayı, sənət istehsalının illik həcmi kimi mühüm məsələlər əks olunmuşdur. Bu məcmuədə diyarın daxili və xarici ticarət əlaqələri haqqında verilən statistik məlumatlar real vəziyyəti daha dolğun əks etdirmələri ilə diqqəti cəlb edir. Ən başlıcası isə məcmuə müəllifi diyarda əhalinin sayının artmasını, ticarətin və sənətkarlığın inkişafını ləngidən əsas səbəbləri müəyyənləşdirməyə cəhd

---

[37] Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединение к Российской империи. Санкт Петербург: Изд-во имп. АН, 1852, 1231 с.

[38] ОРВЗК. ч.IV, Санкт Петербург: 1836, 401 с.

[39] Сборник статистических сведений о Кавказе. т. I, Тифлис: Типография А.А.Михельсона, 1869, с.44-56.

göstərmişdir. Məhz burada verilmiş məlumatlar əsasında Ordubad şəhərində əhali artımında müşahidə edilən durğunluğun kökündə hər il yüzlərlə əmək qabiliyyətli ordubadlının qazanc dalınca diyardan kənara getməsinin dayandığı müəyyənləşdirilmişdir.[40]

İrəvan statistika komitəsinin redaktoru vəzifəsində işləmiş N.Çernoyarskinin 1867-ci ildə "Qafqaz təqvimi"ndə nəşr olunmuş məqaləsi də statistik məlumatlarla zəngindir.[41] Bu məqalədə Ordubad bazarının illik ticarət dövriyyəsinin həcmi, eləcə də daxili bazarda satılan və qonşu vilayətlərə, İrana göndərilən malların çeşidi və dəyəri haqqında verilən məlumatlar tədqiqatımız üçün faydalı olmuşdur. Məqalə müəllifinin Ordubad gömrükxanasında İrandan gətirilən və həmin ölkəyə aparılan mallardan toplanan gömrük rüsumları haqqındakı məlumatları öyrənilən dövrdə bu şəhərin xarici ticarət dövriyyəsi haqqında müəyyən təsəvvür yaradır.

Dissertasiyanın yazılması zamanı bilavasitə Naxçıvan diyarının tarixi ilə bağlı mənbə xarakterli daha bir neçə əsərdən istifadə edilmişdir. Bu əsərlər içərisində rus alimi K.N.Nikitinin[42] və S.P.Zelinskinin[43] əsərlərini xüsusi qeyd etmək lazımdır. Hər iki mənbədə Naxçıvan diyarının tarixi keçmişi ilə yanaşı, onun XIX əsrin 70-80-ci illərindəki sosial-iqtisadi həyatına dair də xeyli faktiki material verilmişdir.

Naxçıvan diyarının xarici ticarət əlaqələri və Rusiya ilə İran arasında aparılan tranzit ticarətdə oynadığı rol haqqında "Rusiya imperiyasının coğrafi-statistik lüğəti" adlı mənbənin 1866-cı ildə nəşr olunmuş üçüncü cildində olduqca qiymətli statistik məlumatlar verilmişdir.[44] Culfa və Ordubad gömrükxanalarının hesabatları əsasında hazırlanmış həmin məlumatlar XIX əsrin 50-60-cı illərində Naxçıvan diyarından İrana aparılan və həmin ölkədən Naxçıvan ərazisinə daxil olan malların həcmi haqqında aydın təsəvvür yaradır. Bu məlumatlar bizə həm də sonrakı onilliklərdə Naxçıvan diyarının xarici ticarət əlaqələrində və tranzit ticarətdə tutduğu mövqedə baş vermiş dəyişikliklərin müqayisəsini aparmaq və müəyyən nəticələr çıxarmaq imkanı vermişdir.

---

[40] Сборник статистических сведений о Кавказе. т. I, Тифлис, 1869.

[41] Черноярский Н. Город Ордубат, в промышленном отношении // Кавказский календарь на 1868 г. Тифлис, 1867, с. 409-417.

[42] Никитин К. Н. Город Нахичеван и нахичеванский уездь // СМОМПК, вып. II, Тифлис, 1882, с. 109-142.

[43] Зелинский С.П. Три магала – Нахичеванский, Ордубадский и Даралагезский // Сборник сведий о Кавказе. т.VII, Тифлис, 1880, s. 209-258.

[44] Географическо-статистический словарь Российской империи. т. III, Санкт Петербург: типографии В. Безобразова и Комп., 1866, 743 с.

Dissertasiyanın yazılması zamanı A.Berjenin redaktorluğu ilə çap olunmuş Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarından,[45] "Qafqaz" qəzetindən,[46] "Qafqaz təqvimi" məcmuəsindən,[47] "İrəvan quberniyasının icmalı"[48] adlı nəşrin müxtəlif illərə aid materiallarından, habelə Qafqazda yaşayan xalqların sosial-iqtisadi həyatının öyrənilməsinə həsr olunmuş müxtəlif materiallardan[49] istifadə edilmişdir.

Naxçıvan diyarının ərazisindən keçən tranzit yollarının XIX əsrin 60-70-ci illərindəki vəziyyətini öyrənmək baxımından M.N.Gersevanovun "Qafqaz haqqında məlumatlar məcmuəsi"ndə nəşr olunmuş iri həcmli əsərinin böyük əhəmiyyəti var.[50] Əsərdə ticarət yollarının uzunluğu, onların yük heyvanlarının və arabaların hərəkəti üçün nə dərəcədə yararlı olması, çar hökumətinin bu yolların abadlaşdırılması istiqamətində gördüyü tədbirlər haqqında qiymətli məlumatlar verilmişdir.

1908-ci ildə Uluxanlı-Culfa dəmir yolu xəttinin istifadəyə verilməsi Naxçıvan diyarının istər daxili, istərsə də xarici və tranzit ticarət əlaqələrinə ciddi təsir göstərdi. Əvvəlki illərlə müqayisədə diyarın ticarət dövriyyəsi dəfələrlə artdı. Bütün bu məsələlər haqqında Cənubi Qafqaz dəmir yollarının kommersiya fəaliyyətinin qısa icmalında[51] xeyli statistik məlumatlara rast gəlmək mümkündür. Yeri gəlmişkən, qeyd edək ki, sonuncu mənbədə XX əsrin əvvəllərində Naxçıvan diyarının iqtisadi həyatının müxtəlif sahələrinə aid qiymətli məlumatlar da verilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi, ilk növbədə, XVIII-XX əsrin əvvəllərində Naxçıvan diyarında iqtisadi həyatın sənətkarlıq və ticarət kimi mühüm sahələrinin Azərbaycan tarixşünaslığında ilk dəfə kompleks şəkildə tədqiq olunması ilə müəyyənləşir. Mənbələrin müqayisəli tənqidi təhlili əsasında yazılmış tədqiqat işində Azərbaycan tarixşünaslığı üçün mühüm əhəmiyyət kəsb edən bir sıra elmi yeniliklər əldə edilmişdir:

- Bölgədə cərəyan edən hərbi və siyasi proseslərin ticarət və sənət-

---

[45] АКАК, т. I-X, Тифлис: 1866-1881

[46] Газ. «Кавказ», 1851, №46; 1859, № 21; 1859, №101; 1862, №25; 1862, №51; 1862, №52;1873, № 7

[47] Кавказский календарь на 1852-1917 г. Тифлис: 1851-1916

[48] Обзор Эриванской губернии за 1887-1914 год, Эриван: 1887-1915

[49] СМИЭБГКЗК, т. IV, Тифлис, 1888; СМОМПК, т. XI, Тифлис, 1891; СМОМПК, т. 38, отд. 3, Тифлис: 1908

[50] Герсеванов М.Н. Очерк положения ирригации в Закавказье в 1882 году. Тифлис: Тип. Михельсона, 1882, 146 с.

[51] Краткий обзор коммерческой деятельности Закавказских железных дорог по статистическим данным о перевозках пассажиров и грузов за 1883-1916 гг. Санкт Петербург: 1916

karlıq mərkəzləri olan şəhərlərin vəziyyətinə təsiri konkret faktlar əsasında öyrənilmişdir;

- XVIII-XX əsrin əvvəllərində Naxçıvan diyarında sənət istehsalının həm ümumi vəziyyəti, həm də onun ayrı-ayrı sahələrinin inkişaf səviyyəsi öyrənilib təhlil edilmişdir;

- XIX əsrin ikinci yarısından etibarən Naxçıvan diyarında kənd sənətkarlığının şəhər sənətkarlığı ilə müqayisədə daha intensiv inkişaf etməsinin səbəblərinə aydınlıq gətirilmişdir;

- Naxçıvan diyarında geniş yayılmış sənət sahələrindən hər birinin əsas mərkəzləri müəyyənləşdirilmiş, onların inkişafının zəruri şərtlərindən olan xammal bazasının vəziyyəti işıqlandırılmışdır;

- Mənbələrin və tədqiqat əsərlərinin təhlili əsasında Naxçıvan və Ordubad şəhərlərinin diyarın sənət istehsalında və ticarət əlaqələrində tutduğu mövqe araşdırılmışdır;

- İlk dəfə olaraq diyarın əsas sənərkarlıq mərkəzlərindən biri olan Ordubad şəhərində əhalinin sayının azalmasının və artımının ləng getməsinin səbəbləri aydınlaşdırılmış; bunun başlıca səbəbinin XIX əsrin ikinci yarısından başlayaraq sənət istehsalının tənəzzülə uğraması ilə əlaqədar əhalinin qazanc dalınca başqa yerlərə getməsinin olduğu müəyyənləşdirilmişdir;

- Naxçıvan və Ordubad şəhərlərində yaşayan əhalinin sosial və milli tərkibi araşdırılmış, şəhər əhalisinin tərkibində tacir və sənətkarların xüsusi çəkisi müəyyənləşdirilmiş, onların sosial-iqtisadi həyatı təhlil edilmişdir;

- Naxçıvan diyarında daxili və xarici ticarətin vəziyyəti kompleks şəkildə öyrənilmiş, iqtisadi həyatın bu mühüm sahəsinin inkişafına təsir göstərən amillər aşkar edilmişdir;

- Naxçıvan diyarının beynəlxalq tranzit ticarətdə oynadığı rola və tutduğu mövqeyə aydınlıq gətirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın yazılması zamanı elmi dövriyyəyə cəlb edilmiş faktiki materialdan, irəli sürülmüş nəzəri müddəalardan və əldə edilmiş nəticələrdən Azərbaycanın sənətkarlıq və sənətkarlıq tarixinə həsr olunmuş tədqiqat əsərlərinin yazılmasında, ali məktəblərin tarix fakültələrində uyğun ixtisas kurslarının aparılmasında, Azərbaycan tarixinə dair ümumiləşdirici əsərlərin, eləcə də Azərbaycan tarixinə dair dərslik və dərs vəsaitlərinin yazılmasında istifadə edilə bilər.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, beş fəsil, on altı yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## II. DISSERTASİYANIN ÜMUMİ MƏZMUNU

Dissertasiyanın **"XVIII-XX əsrin əvvələrində Naxçıvan diyarının siyasi və sosial-iqtisadi həyatı"** adlanan birinci fəsli iki yarımfəsildən ibarətdir. **"XVIII-XX əsrin əvvələrində Naxçıvan diyarının siyasi həyatı və inzibati-ərazi bölgüsü"** adlanan birinci yarımfəsildə göstərilir ki, tədqiq olunan dövrün əvvəllərində Naxçıvan bölgəsi Səfəvilər dövlətinin bir hissəsini təşkil edirdi. Diyara məxsus torpaqların çox hissəsi İrəvan bylərbəyiliyinin tərkibinə daxil idi. Diyarın idarəçiliyi Kəngərli tayfasının irsi hakimləri tərəfindən həyata keçirilirdi.

XVIII əsrin əvvəllərində Səfəvilər dövləti siyasi və sosial-iqtisdi baxımdan dərin böhran keçirirdi. Şah Sultan Hüseynin (1694-1722) yeritdiyi yarıtmaz siyasət nəticəsində ölkənin iqtisadi əsasları laxlamış, xalq kütlələrinin vəziyyəti dözülməz həddə çatmış, feodal özbaşınalığı az qala həyat normasına çevrilmişdi. Bütün ölkəni xalq üsyanları bürümüşdü. 1722-ci ildə əfqan tayfalarının İsfahanı işğal etməsi ilə Səfəvilər dövləti faktiki olaraq süqut etmişdi.[52]

Rusiya və Osmanlı Türkiyəsi Səfəvilər dövlətinin süqut etməsindən Azərbaycan torpaqlarını ələ keçirmək üçün istifadə etdilər. 1724-cü ilin sentyabrında türk ordusu Naxçıvan diyarını işğal etdi.[53] Bununla da Azərbaycanın əksər işğal olunmuş torpaqlarında olduğu kimi, Naxçıvan diyarında da 1735-ci ilə qədər davam etmiş osmanlı ağalığı dövrü başlandı. Osmanlılar Naxçıvan torpaqlarında sancaqlıq yaratdılar və onu 14 kiçik inzibati-ərazi vahidinə - nahiyələrə böldülər. Diyardan əldə edilən gəlirin həcmini müəyyənləşdirmək məqsədilə "müfəssəl dəftər" tərtib edildi.

1735-ci ilin sonlarında Nadir şah Əfşar bütün Cənubi Qafqazı, o cümlədən Naxçıvan diyarını osmanlı işğalından azad etdi. 1736-cı ildə şah seçilən Nadirin sərt idarəçilik siyasəti Naxçıvan diyarından da yan keçmədi. Güclü Kəngərli tayfasının bir çox nüfuzlu şəxsləri Əfqanıstana sürgün edildi. Diyarın idarəçiliyi əvvəlcə Mirzə Rza, sonra isə Ağa Həsən adlı şəxslərə tapşırıldı.[54]

1747-ci ildə Nadir şahın sui-qəsd nəticəsində öldürülməsindən sonra Azərbaycan ərazisində 20-yə qədər müstəqil və yarımasılı xanlıq yaran-

---

[52] Миклухо-Маклай Н.Д. Из истории афганского владычества в Иране (20-е годы XVIII века) // Ученые записки ЛГУ, 1954, Серия востоковед. наук, № 79, с. 141

[53] Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı: Sabah, 1997, s.12

[54] Əliyev F., Əliyev M. Göstərilən əsəri, s.17-18

dı. Kəngərli tayfasının başçısı Heydərqulu xanın başçılığı altında yaranmış Naxçıvan xanlığı Maku, Xoy, Qaradağ, Qarabağ və İrəvan xanlıqları ilə həmsərhəd idi. Xanlığın ərazisi inzibati cəhətdən mahallara bölünmüşdü.

Əlverişli coğrafi mövqeyə və zəngin təbii ehtiyatlara baxmayaraq, Naxçıvan xanlığı həmin dövrdə güclü xanlığa çevrilə bilmədi. Hakimiyyət uğrunda fasiləsiz davam edən çəkişmələr xanlığın güclənməsinə imkan vermir, onu Xoy, Qarabağ, İrəvan xanlıqları və Kartli-Kaxetiya çarlığı arasında çəkişmə obyektinə çevirirdi. Yalnız 1897-ci ildə görkəmli dövlət xadimi olan Kalbalı xanın hakimiyyətə gəlməsindən sonra xanlıqda vəziyyət nisbətən sabitləşdi. Lakin bu vəziyyət də uzun sürmədi. 1797-ci ildə xanlıq İran-Qacar dövlətinin tərkibinə qatıldı və öz müstəqilliyini itirdi.[55]

XIX əsrin əvvəllərində baş vermiş Rusiya-İran müharibələri Naxçıvan diyarının ictimai-siyasi həyatına güclü təsir göstərdi. Dəfələrlə əldən-ələ keçən diyar ciddi dağıntılara məruz qaldı. 1828-ci il fevralın 10-da imzalanmış Türkmənçay müqaviləsi diyarın Rusiya tərəfindən işğalını rəsmiləşdirdi. Bundan sonra çar hökuməti diyarın inzibati-ərazi bölgüsünü və idarəçiliyini öz maraqlarına uyğun olaraq bir neçə dəfə dəyişdirdi. Diyarın ərazisi əvvəlcə süni şəkildə yaradılmış "erməni vilayəti"nin, 1849-cu ildən isə İrəvan quberniyasının tərkibinə qatıldı. 1874-cü ildə Şərur-Dərələyəz qəzasının yaradılması ilə Naxçıvan diyarının inzibati-ərazi quruluşunda aparılan dəyişikliklərə yekun vuruldu.

Birinci fəslin **"Sosial-iqtisadi həyat"** adlanan ikinci yarımfəslində diyarın iqtisadi həyatının dənli bitkilər istehsalı, bağçılıq, üzümçülük, bostançılıq kimi sahələrinin, habelə süni suvarma sisteminin vəziyyəti tədqiq edilmişdir. Aparılan tədqiqatlar göstərir ki, bu dövrdə Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan diyarında da torpaq mülkiyyətinin ənənəvi formaları - dövlət, xalisə, mülk, tiyul, vəqf və camaat torpaqları qalmaqda davam edirdi. Bununla belə, Naxçıvan xanlığının İran-Qacar dövlətinin hakimiyyəti altında olduğu dövrdə istər mülk, istərsə də tiyul torpaqlarının xarakterində müəyyən dəyişikliklər baş vermişdi. Bu siyasətin kökündə Qacar hakimiyyətinin iri torpaq sahiblərinin mövqelərinin zəiflədilməsi siyasəti dayanırdı.[56]

İkinci yarımfəsildə Naxçıvan diyarında yaşayan əhalinin sosial, say və milli tərkibi kimi mühüm məsələlər də tədqiq olunmuşdur. Tədqiq olunan dövrün XIX əsrin ikinci yarısına qədər olan hissəsində əhalinin sosial tərkibi,

---

[55] Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1802 г. ч.II, Санкт Петербург: Имп. Акад. Наук, 1869, с.427-428.

[56] Şopen İ. Göstərilən əsəri, s.927

əsasən torpaq sahiblərindən, kəndlilərdən, tacir və sənətkarlardan ibarət idi. XIX əsrin ikinci yarısından başlayaraq diyarda kapitalist istehsalının meydana gəlməsi sənayeçi və muzdlu fəhlə kimi yeni sosial təbəqələrin yaranmasına gətirib çıxardı. XIX əsrin sonlarında Naxçıvan qəzasında ticarət-sənaye fəaliyyəti ilə məşğul olanların sayı 4209 nəfər olub, əhalinin ümumi sayının 19,9%-ni təşkil edirdi.[57] Bölgədə cərəyan edən hadisələr əhalinin say və etnik tərkibinə də təsir göstərmişdi. XVIII əsrin əvvəllərindən XIX əsrin əvvəllərinə qədərki dövr əhalinin artımı baxımından xüsusilə əlverişsiz olmuşdu. Yalnız Rusiya işğalının başa çatmasından sonra yaranmış sabitlik diyarda əhalinin artımı üçün münbit şərait yaratdı. 1829-cu ildə diyarda cəmi 40.248 nəfər yaşadığı halda, 1917-ci ildə əhalinin sayı artaraq 165-170 min nəfərə çatmışdı.[58]

Dissertasiyanın **“Naxçıvan diyarının əsas sənətkarlıq və ticarət mərkəzləri”** adlanan ikinci fəsli iki yarımfəsildən ibarətdir. **“Naxçıvan şəhəri”** adlanan birinci yarımfəsildə Naxçıvan şəhərinin tarixinə qısa ekskurs edilir, onun əsrlər boyu Azərbaycanın ictimai-siyasi və iqtisadi tarixində mühüm rol oynadığı xüsusi vurğulanır. Azərbaycan Atabəyləri zamanında özünün çiçəklənmə dövrünü keçirən şəhər, sonrakı tarixi mərhələlərdə, xüsusilə XVI-XVII əsrlərdə baş vermiş Səfəvi-Osmanlı müharibələri nəticəsində dəfələrlə əldən-ələ keçmiş, ciddi dağıntılara məruz qalmışdı. Təkcə o faktı göstərmək kifayətdir ki, XII əsrdə 150-200 min nəfər əhalinin yaşadığı Naxçıvan şəhərində tədqiq olunan dövrün başlanğıcında cəmi 4 min nəfər əhali yaşayırdı.[59] Bütün XVIII əsrdə və XIX əsrin əvvəllərində baş vermiş hərbi əməliyyatlar şəhərin tənəzzülünü daha da dərinləşdirmişdi. Naxçıvanın düşdüyü bu acınacaqlı vəziyyətdən bəhs edən İ.Şopen yazırdı: “Naxçıvanın görünüşü amansızlıqla zəbt olunmuş şəhəri xatırladır. Şəhərdəki dəhşətli dağıntılar nəticəsində uçurdulmuş evlər, ensiz, dar küçələr cəhənnəmi andırır”.[60] Yalnız Rusiya işğalından sonra yaranmış sabitlik şəhərin dağıntılardan xilas olmasına, orada yaşayan əhalinin sayının artmasına gətirib çıxardı. XX əsrin əvvəllərinə aid olan məlumata görə, şəhərdə 8845 nəfər əhali yaşayırdı.[61]

Bütün XVIII əsrdə və XIX əsrin əvvəllərində Naxçıvan şəhəri ciddi dağıntılara məruz qalsa da, ticarət və sənətkarlıq mərkəzi kimi öz əhəmiy-

---

[57] Muradəliyeva Ə.B. Göstərilən əsəri, s.108

[58] ADTA: f.379, siy.1, iş: 5901, v.13

[59] Naxçıvan sancağının müfəssəl dəftəri, s.23-30

[60] Şopen İ. Göstərilən əsəri, s.47

[61] Кавказский календарь на 1904 год. Тифлис, 1903, с.32-33

yətini, qismən də olsa saxlaya bilmişdi. Bununla belə, şəhərdə sənətkarların sayı heç də həmişə sabit olmurdu. Əgər 1831-ci ildə şəhərdə çalışan sənətkarların sayı 394 nəfər təşkil etmişdisə, onların sayı 1848-ci ildə 172 nəfərə enmiş, 1865-ci ildə isə yenidən artaraq 433 nəfərə çatmışdı.[62]

Gürcüstanı Cənubi Azərbaycan və İranla birləşdirən tranzit ticarət yolunun üzərində əlverişli mövqe tutmasına baxmayaraq, tədqiq olunan dövrdə Naxçıvan şəhərini heç də mühüm ticarət mərkəzi kimi xarakterizə etmək mümkün deyildir. Bir tərəfdən XVIII əsrdə və XIX əsrin əvvəllərində baş vermiş müharibələr, digər tərəfdən isə işğaldan sonra nəhəng Rusiya imperiyasının ucqarlarından birinə çevrilməsi Naxçıvan şəhərində ticarətin inkişafına mane olan səbəblərdən idi. Yerli istehsalın zəifliyi də şəhərin daxili və xarici ticarət əlaqələrinin inkişafına mənfi təsir göstərirdi. XIX əsrin 60-cı illərində şəhərin daxili ticarətinin illik dövriyyəsi cəmi 113.200 rubl təşkil etmişdi.[63]

Bu fəslin **"Ordubad şəhəri"** adlanan ikinci yarımfəslində göstərilir ki, Ordubad şəhəri Naxçıvan şəhəri ilə müqayisədə dağıntılara daha az məruz qalmışdı. Bu isə şəhərdə sənət istehsalının və ticarətin inkişafı üçün əlverişli şərait yaratmışdı. Tədqiq olunan dövrdə 5 məhəllədən ibarət olan Ordubad həm də özünün abadlığı və gözəlliyi ilə də məşhur idi. XIX əsrin 30-cu illərində tərtib olunmuş mənbələrdən birində göstərilirdi ki, "Ordubad şəhəri çeşidli görkəmə malikdir. İrəvan və Naxçıvandan daha ürəkaçandır".[64]

Azərbaycanın digər bölgələrində olduğu kimi, Ordubad şəhərində də ticarət və sənətkarlıq bazarda cəmləşmişdi. Şəhərin mərkəzində yerləşən bazar istehsal edilən və satılan məhsulların təyinatına görə bir neçə hissəyə bölünürdü. Bazarda xeyli sayda sərrac, başmaqçı, çəkməçi, papaqçı, dəmirçi kimi sənətkarlar çalışırdı. "Baqqal bazarı"nda baqqal və qəssab dükanları, çörəkxanalar, aşxana və pitixanalar yerləşirdi. "Arasa meydanı"nda tacirlər pərakəndə və topdansatış ticarəti ilə məşğul olurdular.[65]

Tədqiq olunan dövrdə Ordubad şəhərini Azərbaycanın digər şəhərlərindən fərqləndirən əsas xüsusiyyətlərdən biri burada dini tikililərin sayının xeyli çox olması idi. 1832-ci ildə əhalisinin sayı cəmi 3536 nəfər olan şəhərdə 31 məscid fəaliyyət göstərirdi.[66] Daha doğrusu, hər yüz nəfərə bir məscid düşürdü.

---

[62] Сборник статистических сведений о Кавказе. т. I, с.48

[63] Yenə orada, s.47

[64] Azərbaycan DTA, f.24, siy.1, iş 372, v. 5-6

[65] Fərəcov Ə.S. Göstərilən əsəri, 90-91

[66] Vahidova X. Göstərilən əsəri, s.3

Azərbaycanın abad şəhərlərindən biri olmasına baxmayaraq, Ordubad əhalisinin sayına görə kiçik şəhərlər sırasında idi. Mənbələrdən əldə edilmiş məlumatlar göstərir ki, burada 1727-ci ildə 3000 nəfər, 1865-ci ildə 4360 nəfər, 1917-ci ildə 5717 nəfər əhali yaşayırdı. Bu rəqəmlər şəhərdə əhalinin artım sürətinin çox aşağı olduğunu sübut edir. Aparılan tədqiqatlar göstərir ki, belə bir vəziyyətin yaranmasının kökündə əhalinin qazanc dalınca kütləvi şəkildə digər yerlərə getməsi dayanırdı. Təkcə 1863-cü ildə şəhəri tərk etmiş iş qabiliyyətli insanların sayı 600 nəfərdən çox olmuşdu.[67]

Ordubad şəhərinin iqtisadi həyatının əsasını ticarət, sənətkarlıq və bağçılıq təşkil edirdi. Yerli sənətkarların istehsal etdikləri müxtəlif növ misgərlik, dabbağlıq məmulatları, ayaqqabı, xam ipək yerli tələbatı ödəməklə yanaşı, qonşu ölkələrə və vilayətlərə də göndərilirdi. Onların bir qisminin əsas satış bazarı Naxçıvan və İrəvan şəhərləri idi.

Ordubad şəhərini Azərbaycanın digər şəhərlərindən fərqləndirən əsas xüsusiyyətlərindən biri burada bağçılığın və üzümçülüyün yüksək inkişaf səviyyəsinə çatması və şəhər əhalisinin əsas gəlir mənbələrindən birini təşkil etməsi idi. Bəzi vaxtlarda ordubadlıların bağçılıqdan əldə etdikləri gəlir hətta sənətkarlıqdan əldə edilən gəliri də üstələyirdi. Bəzi məlumatlara görə, Ordubadda yaşayan hər bir ailə ildə orta hesabla 80-90 rubl gəlir götürürdü.[68] XIX əsrin sonu-XX əsrin əvvəllərində şəhərdə kapitalist istehsalının bir çox ənənəvi sahələrinin tənəzzülə uğradığı bir şəraitdə bu gəlir xüsusilə əhəmiyyətli idi. İpəkəyirmə və sarıma sənayesinin daha intensiv inkişaf etdiyi Ordubad həm də pambıqtəmizləmə, gön-dəri məmulatı və tikinti materialları istehsalının mərkəzlərindən birinə çevrilmişdi.[69]

Dissertasiyanın **"Kənd təsərrüfatı məhsullarının emalı ilə bağlı olan sənət sahələri"** adlanan üçüncü fəsli 5 yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **"Pambıq parça istehsalı"** adlanır. Naxçıvan diyarı tədqiq olunan dövrə qədər özünün xam pambığı və müxtəlif növ pambıq parçaları ilə məşhur idi. "Naxçıvan sancağının müfəssəl dəftəri" əsasında aparılan hesablamalar göstərir ki, XVIII əsrin əvvəllərində diyarda pambıq istehsalının illik həcmi, təxminən 30 min tona çatırdı. Diyarın Əlincəçay mahalında daha çox pambıq yetişdirilirdi. İran-Qacar dövləti XIX əsrin əvvəllərində bu mahalın Küznüt kəndindən pambıq satışına görə ildə 2 min tümən gəlir götürürdü.[70]

---

[67] Сборник статистических сведений о Кавказе. т. I, с.54

[68] Yenə orada, s.61

[69] Сборник статистических сведений о Кавказе. т.VII, с.254

[70] ADTA: f.24, siy.1, iş: 354, II h., v.2

Diyarda istehsal edilən pambığın müəyyən hissəsi ixrac edilsə də, əsas hissəsi yerli toxucular tərəfindən müxtəlif növ pambıq parçalara çevrilirdi. XVIII əsrdə və XIX əsrin birinci yarısında pambıq parçalar həm şəhərdə fəaliyyət göstərən karxanalarda, həm də kəndlərdə ev şəraitində toxunurdu. Təkcə Naxçıvan şəhərində faəliyyət göstərən 40 bəzzaz karxanasında 126 nəfər, Ordubad şəhərində isə 145 nəfər toxucu çalışırdı.[71] Bu dövrdə diyarın Naxçıvan, Əlincəçay və Əylis mahallarında pambıq parça toxuculuğu ilə 300 nəfərdən çox sənətkar məşğul olurdu.[72]

Pambıq parça istehsalında birincilik bez parçalara məxsus idi. Müxtəlif ölçülərdə və texnoloji qaydada toxunan bu parçalar həm də digər pambıq parça növlərinin hazırlanması üçün bir növ xammal rolunu oynayırdı. Bez parçalardan boyama, basma və qələmkarlıq yolu ilə yeni pambıq parçalar hazırlanırdı. Türk səyyahı Övliya Çələbi bu üsulların köməyi ilə hazırlanmış pambıq parçaların Naxçıvanın hüdudlarından kənarda da böyük şöhrət qazanması haqqında məlumat verir.[73] İstər Naxçıvan, istərsə də Ordubad şəhərində basma naxış üsulu ilə pambıq parça istehsal edən xeyli sənətkar çalışırdı. Belə sənətkarların Yaycı kəndində də fəaliyyət göstərmələri haqqında məlumat var.[74]

Əldə olan məlumatlar göstərir ki, pambıq parça istehsalında XIX əsrin ikini yarısından etibarən dərin tənəzzül başlandı. Mənbələrin bir çoxunda bunun əsas səbəbi kimi yerli sənətkarların istehsal etdikləri pambıq parçaların İran ustalarının istehsal etdikləri bu növ məhsullarla rəqabətə tab gətirə bilməmələri göstərilir.[75]

Bu fəslin ikinci yarımfəsli **"İpəkçilik və ipək parça istehsalı"** adlanır. Aparılan araşdırmalar göstərir ki, Naxçıvan diyarının Ordubad bölgəsi hələ Erkən Orta əsrlər dövründən ipəkçiliyin və ipək parça istehsalının mühüm mərkəzlərindən biri olmuşdur. Bununla belə, diyarda ipəkçiliyin inkişafında yüksəliş Azərbaycanın Rusiya tərəfindən işğalının başa çatmasından sonrakı dövrə təsadüf edir. Bir tərəfdən bölgədə tut bağlarının bolluğu, digər tərəfdən isə Rusiyada və Avropa ölkələrində xam ipəyə tələbatın kəskin şəkildə artması ipəkçiliyi gəlirli bir sahəyə çevirmişdi. XX əsrin əvvəllərinə

---

[71] Qriqoryev V. Göstərilən əsəri, s.94; Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в., с.5

[72] ADTA: f.24, siy.1, iş: 354, II h., v.355, 369

[73] Эвлия Челеби. Книга путешествия (извлечения из сочинения турецкого путешественника XVII века). Вып.3, Москва: Наука, 1983, 372 с.

[74] Сборник статистических сведений о Кавказе. т. VIII, Тифлис: 1886, с.234-236

[75] Отчеты о деятельности Кавказского кустарного комитета и учреждений по кустарной промышленности на Кавказе в 1912-1914 гг, Тифлис: 1915, с.3

aid məlumata görə, Ordubad qəzasının 46 kəndindən 43-də baramaçılıq əhalinin əsas gəlir mənbəyini təşkil edirdi.

Xam ipək istehsalında yerli gümdarlar uzun müddət yerli baramaqurdu növlərindən istifadə edirdilər. Lakin XIX əsrin ikinci yarısından etibarən müxtəlif xəstəliklərə davamlı və daha məhsuldar barama qurdlarından istifadə edilməyə başlanıldı. Ordubad gümdarları daha çox Fransadan gətirilən barama qurdlarından istifadə edirdilər. Özlərinin yüksək məhsuldarlığı ilə seçilən bu qurdlar sonralar bütün Azərbaycana yayılmışdı.[76]

Rusiyada və Qərbi Avropada xam ipəyə tələbatın sürətlə artması ipəkçiliyin xarakterinə də ciddi təsir göstərir, bu sahədə kapitalist münasibətlərinin meydana gəlməsi üçün əlverişli şərait yaradırdı. Elə bunun nəticəsi idi ki, XIX əsrin ikinci yarısından başlayaraq Ordubadda fabrik tipli ilk kapitalist müəssisələri meydana gəlməyə başladı. Həmin əsrin 90-cı illərində Naxçıvan və Ordubad qəzalarında ipək emal edən müəssisələrin sayı artıq 25-ə çatmışdı.[77]

Naxçıvan diyarında, xüsusilə onun Ordubad bölgəsində xam ipək istehsalının yüksək inkişaf səviyyəsinə çatmasına baxmayaraq, burada ipək parça istehsalı sahəsində ümumiyyətlə fərqli mənzərə mövcud idi. Mənbələrdə istər son orta əsrlərdə, istərsə də yeni dövrdə bu bölgədə ipək parça istehsalının çeşidi və miqyası haqqında verilən məlumatlar olduqca cüzidir və əksər hallarda ötəri xarakter daşıyır. “Naxçıvan diyarının statistik təsviri”ndə göstərilir ki, icarədar Naxçıvan şəhərində hər 10 arşın ipək parçanın boyanması üçün 20 qəpik vergi toplayırdı.[78] Bu fakt sübut edir ki, XIX əsrin 30-cu illərində Naxçıvan şəhərində ipək parça istehsalı mövcud idi. Heç şübhəsiz ki, bu dövrdə Azərbaycanın Təbriz, Şamaxı, Şəki, Gəncə, Dərbənd, Şuşa kimi əsas toxuculuq mərkəzlərində istehsal edilən ipək parça məmulatları Naxçıvan diyarı üçün də xarakterik idi. Naxçıvan və Ordubad şəhərlərində kimxa, darayı, qanavuz, atlaz, tafta, cecim, diba və s. kimi ənənəvi ipək parçalar istehsal edilirdi.

Bütün bunlarla yanaşı, Naxçıvan diyarında ipək parça istehsalının qeyri-sabit və məhdud xarakter daşıdığını xüsusi vurğulamaq lazım gəlir. Bu problemlə bağlı tədqiqat aparmış müəlliflərdən biri yazırdı ki, Azərbaycanın digər iri toxuculuq mərkəzlərindən fərqli olaraq Ordubadda məhdud xarakter daşıyan ipək parça istehsalı XIX əsrin ortalarında tamamilə dayanmışdı.

---

[76] Azərbaycan etnoqrafiyası: 3 cilddə, I c., Bakı: Elm, 2007, s.221

[77] Sumbatzadə Ə.S. Göstərilən əsəri, s.437

[78] Qriqoryev V. Göstərilən əsəri, s.112

Yalnız ayrı-ayrı ailələrdə məhdud miqdarda cecim, məfrəş və kəlağayı kimi ipək məmulatları toxunurdu.[79] Burada ipək parça istehsalının tam tənəzzülə uğramasının əsas səbəbini yerli məhsulların xarici ölkələrdən gətirilən oxşar məhsullarla rəqabətə davam gətirə bilməməsində axtarmaq lazım gəlir. Yaranmış vəziyyətin uzun müddət davam etməsi ipək parça toxuculuğunda əsrlər boyu formalaşmış ənənələrin itirilməsinə gətirib çıxarmışdı. 1902-ci ildə Ordubadda ipək parça toxuculuğunu bərpa etmək istəyən yerli tacirlərdən biri bu problemlə üzləşməli olmuşdu: o, həmin ildə şəhərdə ipək parçalar istehsal edən emalatxanasında işləmək üçün yerli toxucular tapa bilmədiyindən, onları İrandan dəvət etməyə məcbur olmuşdu.[80]

Üçüncü fəslin **"Xalçaçılıq"** adlanan üçüncü yarımfəslində göstərilir ki, Naxçıvan bölgəsi xalçaçılığın meydana gəldiyi ilk ərazilərdən biri olmuşdur. Hələ X əsrdə tərtib edilmiş mənbələrdən birində Naxçıvan şəhəri "zili" və "xalı" tipli xalça məmulatlarının əsas istehsal və satış mərkəzlərindən biri kimi xarakterizə edilir.

Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan diyarında da xalçaçılığın inkişafında sənətkarlar arasında nəsildən-nəslə keçən zəngin ənənələrin və yüksək peşəkarlığın olması ilə yanaşı, işçi qüvvəsinin bolluğu da mühüm rol oynamışdır. Əslində xalçaçılıq sənətini digər sənət sahələrinin əksəriyyətindən fərqləndirən ən başlıca xüsusiyyətlərdən biri onun ancaq qadın əməyinə əsaslanması idi. Digər bölgələrdə olduğu kimi, Naxçıvanda da qız uşaqları çox erkən yaşlarından xalça toxumağa alışdırılırdı.

Xalçaçılıq sənətinin inkişafı xammal ehtiyatlarının, ilk növbədə isə qoyunçuluğun inkişafı ilə sıx bağlı idi. Xanlıqlar dövrünün sonu və rus müstəmləkəçiliyinin başlanğıcında Naxçıvan diyarında yetişdirilən qoyun və keçilərin sayı 38686 baş təşkil edirdi.[81] XIX əsrin ikinci yarısından başlayaraq xalça məmulatına tələbatın kəskin şəkildə artması burada da qoyunçuluğun inkişafına ciddi təsir göstərmişdi. Artıq XIX əsrin 70-ci illərində diyarda saxlanılan qoyun və keçilərin sayı, həmin əsrin ortaları ilə müqayisədə, təxminən 4 dəfə artaraq 160 min başa çatmışdı.[82] Bunların əksəriyyətini mazıx və balbas cinsli qoyunlar təşkil edirdi. Yunu bir qədər qaba olub qızılı və qəhvəyi rəngə çalan mazıx cinsindən fərqli olaraq xalçaçılıqda ağ rəngli yunu olan balbas qoyunların yunundan daha çox istifadə edilirdi.

---

[79] Paşayev A. Göstərilən əsəri, s.26

[80] Памятная книжка Эриванской губернии на 1904 год. Эриван: 1902, с.24

[81] Qriqoryev V. Göstərilən əsəri, s.93, 100

[82] Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində, s.41

Azərbaycanın digər xalçaçılıq bölgələrində olduğu kimi, Naxçıvan diyarında da xalçaçılar yundan xalça toxumağa başlamazdan əvvəl onu yuyur, qurudur, darayır, əyirir və boyayırdılar. Bundan sonra bəsit quruluşa malik olan dik hanada xalça məmulatlarının toxunulmasına başlanılırdı.

Rusiya və Avropa bazarlarında xalça məmulatına tələbatın kəskin şəkildə artması bu sənətin Naxçıvan diyarında da daha geniş vüsət almasına gətirib çıxardı. Bu dövrə aid mənbələrdən birində göstərilirdi ki, diyarda bez toxuculuğu ilə yanaşı, müxtəlif növ xalça istehsalı da geniş yayılmışdır; xalçaların hazırlanması ilə tatar qadınlar məşğul olur, xüsusilə Dərələyəz mahalının şərq hissəsində yaxşı keyfiyyətli xalçanın hər ədədinin qiyməti gümüş pulla 10 rubldan yuxarıdır.[83]

XIX əsrin ortalarına aid statistik məlumatlardan aydın olur ki, Naxçıvan diyarında təkcə bir il ərzində 1050 ədəd xalça, 3000 ədəd at çulu, 2500 ədəd keçə, 5000 ədəd çuval, 460 ədəd məfrəş, 10 min ədəd yun corab, 20 min arşın mahud toxunmuşdu. İstehsal edilən bu məhsulun xeyli hissəsi, o cümlədən 400 ədəd xalça, 1500 ədəd çuval, 5000 ədəd yun corab satışa çıxarılmışdı.[84] 1908-ci ildə Uluxanlı-Culfa dəmir yolu xəttinin istifadəyə verilməsi diyarda xalça və xalça məmulatı istehsalına təkan verdi. Bu yol vasitəsilə istehsal edilən məhsulun xarici bazarlara çıxarılması imkanlarının artması diyarda xalçaçılıqla məşğul olanların sayının xeyli artmasına gətirib çıxardı. XX əsrin ikinci onilliyinə aid olan məlumata görə, bu dövrdə Naxçıvan və Şərur-Dərələyəz qəzalarının 161 kəndində, təxminən 2000 təsərrüfatda müxtəlif növ xalça məmulatı istehsal edilirdi.[85]

Naxçıvanda tədqiq etdiyimiz dövrdə toxunmuş xalça məmulatlarının xeyli sayda nümunəsi dövrümüzə qədər gəlib çatmışdır. Aparılan çöl tədqiqatları zamanı Naxçıvan Muxtar Respublikasının ayrı-ayrı rayonlarında XVIII-XX əsrin əvvəllərində toxunmuş və şəxsi kolleksiyalarda saxlanılan 24 ədəd yun xovlu xalça, 4 ədəd “Namazlıq”, 4 ədəd yun zili, 2 ədəd duz torbası, 2 ədəd xurcun, 1 ədəd məfrəş üzü, 1 ədəd şəddə, 1 ədəd kilim aşkar edilərək elmi ictimaiyyətə təqdim edilmişdir.[86]

Üçüncü fəslin dördüncü yarımfəsli **“Gön-dəri məmulatı istehsalı”** adlanır. Burada gön-dəri məmulatı istehsalının xammal bazası, həmçinin bu sənətin ayaqqabı istehsalı, papaqçılıq, sərraclıq kimi daha geniş yayılmış

---

[83] Qriqoryev V. Göstərilən əsəri, s.94

[84] Sumbatzadə Ə.S. Göstərilən əsəri, s.44

[85] Обзор Эриванской губернии за 1913 год. Эриван: 1914, с.14

[86] Muradov V. Naxçıvan xalçaçıları. Bakı: Elm, 2013, s. 131-149

sahələri tədqiq olunmuşdır. Göstərilmişdir ki, gön-dəri məmulatı istehsalının ilkin mərhələsini xammalın tədarükü və aşılanması təşkil edirdi. Bu işlə məşğul olan dabbağlar xammal kimi iri və xırdabuynuzlu malqaranın gön və dərilərindən istifadə edirdilər.

Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan diyarında da dabbağlıq sənəti daha çox şəhərlərdə cəmləşmişdi. Dabbağxanalar adətən, şəhər kənarında və su hövzəsinə yaxın olan küçələrdə yerləşirdi. Lakin Ordubad şəhəri bu sahədə istisnalıq təşkil edirdi. Belə ki, burada faəliyyət göstərən 12 dabbağ emalatxanası şəhərin mərkəzi küçələrindən birində yerləşirdi.[87]

Tədqiq olunan dövrdə Naxçıvan və Ordubad şəhərləri Azərbaycanda gön-dəri məmulatı istehsalının mühüm mərkəzlərindən hesab edilirdi. Naxçıvan şəhərində dabbağların sayı xüsusilə çox idi. Əgər XIX əsrin 30-cu illərində onların sayı 22 nəfər təşkil edirdisə, 1865-ci ildə artıq 33 nəfərə çatmışdı.[88] Ordubad şəhərində də bu sənət bütün XIX əsrdə və XX əsrin əvvəllərində yüksələn xətlə inkişaf etmişdi. İstehsal edilən dabbağ məmulatı gön, sağrı, müşkü, tumac, kosala və s.-dən ibarət idi. Aşılanma əməliyyatını başa çatdıran dabbağlar hazır məmulatları müxtəlif vasitələrin köməyi ilə qara, qırmızı, çəhrayı, yaşıl, sarı və s. rənglərə boyayırdılar. Hazır məhsul yerli tələbatı ödəməklə yanaşı, qonşu İrəvan və Aleksandropol qəzalarına, İrana və digər yerlərə də göndərilirdi.[89]

Naxçıvan diyarında gön-dəri məmulatı istehsalının aparıcı sahələrindən birini ayaqqabı istehsalı təşkil edirdi. Müxtəlif növ ayaqqabı məmulatına yüksək tələbat bu sahədə sənətdaxili ixtisaslaşmanın yaranmasına və müstəqil sənət səciyyəsi daşıyan başmaqçılıq, çəkməçilik, çustçuluq, çarıqçılıq, pinəçilik kimi sənətlərin meydana gəlməsinə səbəb olmuşdu. Say etibarı ilə başmaqçılar və çəkməçilər üstünlük təşkil edirdi. XIX əsrin 20-30-cu illərinə aid məlumata görə, Naxçıvan darəsində 46 nəfər, Ordubad dairəsində isə 44 nəfər ayaqqabı istehsalçısı fəaliyyət göstərirdi.[90] XIX əsrin 40-50-ci illərində bu sahədə müşahidə edilən tənəzzül həmin əsrin 60-cı illərində yenidən yüksəlişlə əvəz olunmuşdu. 1865-ci ildə Naxçıvanda çalışan başmaqçıların sayı 99 nəfərdən çox idi.

---

[87] Azərbaycan DTA, f.24, siy.1, iş 372, v.13

[88] Сборник статистических сведений о Кавказе. т. I, Тифлис: 1869, səd.5

[89] Кавказский календарь на 1868 год. Тифлис: 1867, с.413; Сборник статистических сведений о Кавказе. т. I, с.54

[90] ADTA: f.24, siy.1, iş 353, v.16; iş: 372, v.14

Naxçıvan diyarında çalışan ayaqqabı ustalarının xeyli hissəsi Ordubad şəhərində cəmləşmişdi. 1852-ci ildə burada 44 nəfər, 1865-ci ildə 49 nəfər, 1867-ci ildə 55 nəfər ayaqqabı ustası fəaliyyət göstərirdi.[91] Müşahidə edilən bu yüksəliş daha çox başmaqçılıq sənətinə aid idi. Mənbələrdə verilən məlumatlar göstərir ki, XIX əsrin ikinci yarısından başlayaraq Ordubadda çəkməçilik sənətində geriləmə özünü göstərməyə başladı. Belə ki, 1854-cü ildə burada 24 nəfər çəkməçi fəaliyyət göstərdiyi halda, 10 il sonra onların sayı kəskin şəkildə azalaraq cəmi 4 nəfər təşkil etmişdi.[92] Göstərmək lazımdır ki, çəkməçilik sənətində müşahidə edilən bu tənəzzül ümumazərbaycan səciyyəsi daşıyırdı. Yerli ustalar tərəfindən tikilmiş çəkmələr Rusiyadan və Avropadan gətirilmiş oxşar məhsullarla rəqabətə tab gətirə bilmirdi.

Gön-dəri məmulatlarının bolluğu Naxçıvan diyarında papaqçılıq sənətinin də inkişafı üçün əlverişli şərait yaratmışdı. Bu sənət sahəsi ilə məşğul olanların sayı Naxçıvan şəhərində daha çox idi. Belə ki, burada 1835-ci ildə 35 nəfər, 1848-ci ildə 28 nəfər, 1864-cü ildə 24 nəfər papaqçı fəaliyyət göstərmişdi.[93] Ordubad şəhərində isə papaqçıların sayı ən çox 1853-cü ildə olub 27 nəfərə çatmışdı. Ondan sonrakı illərdə bu sənətkarların sayı tədricən azalaraq 1886-cı ildə 8 nəfərə enmişdi. XIX əsrin sonlarından başlayaraq, bütün Azərbaycanda olduğu kimi, Naxçıvan diyarında da papaqçılıq sənətində tənəzzül əlamətləri özünü aydın şəkildə göstərirdi.

Əksər hallarda yerli qoyun və quzu dərisindən istifadə edən papaqçılar müxtəlif formalı papaqlar tikirdilər. V.Qriqoryev yazırdı ki, Naxçıvanda papaqlar "kəsilmiş konusa bənzər şəkildə qara qoyun dərisindən hazırlanır. Onların üst hissəsi mahud və ya parçadan olur".[94]

Naxçıvanda gön-dəri məmulatı istehsalının bir sahəsi olan sərraclıq qədim tarixə malikdir. XIX əsrin sonlarında bu sənət üç müstəqil sahəyə bölünmüşdü: 1) Yük yəhərlərinin – palanların hazırlanması; 2) At yəhərlərinin taxta hissəsinin hazırlanması; 3)Yəhərin gön-dəri hissəsinin hazırlanması. Sonuncu işlə məşğul olanlar "sərrac" adlanırdı.[95] Bu sənət Ordubad şəhərində daha çox inkişaf etmişdi. 1886-cı ilə aid olan məlumata görə, burada həmin sənətlə məşğul olan sənətkarların sayı 5 nəfər təşkil etmişdi.

Dissertasiyanın üçüncü fəslinin sonuncu yarımfəsli **"Boyaqçılıq"** ad-

---

[91] Vahidova X. Göstərilən əsəri, s.180-181

[92] ADTA: f.10, siy.2, iş 7, v.1-120; f.43; siy.4, iş: 2827, v.5-106

[93] Sumbatzadə Ə. Göstərilən əsəri, s.106

[94] Qriqoryev V. Göstərilən əsəri, s.46

[95] СМОМПК, т. XI, Тифлис: 1891, с.76

lanır. Göstərilmişdir ki, Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan diyarında da parça toxuculuğu, xalçaçılıq və gön-dəri məmulatı istehsalı kimi sənət sahələrinin yayılması boyaqçılıq sənətinin də inkişafını zəruri edirdi. Bölgənin boyaqçılıq sənətinin inkişafı üçün zəruri olan xammal ehtiyatları ilə zənginliyi də bu sənətin inkişafı üçün əlverişli şərait yaratmışdı.

Tədqiq olunan dövrdə Naxçıvan diyarında boyaqçılıq sənəti haqqında ilk rəsmi məlumata "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə rast gəlmək mümkündür. Bu məlumata görə, 1727-ci ildə Naxçıvan şəhərində, Qışlağat nahiyəsinin Yezdabad kəndində və Azadçıran nahiyəsinin Meqri kəndində müstəqil boyaqxanalar fəaliyyət göstərirdi.[96]

Boyaqçılıq sənəti həm şəhərlər, həm də toxuculuq sənətinin inkişaf etdiyi kəndlər üçün xarakterik idi. Əldə olan materiallar göstərir ki, bu yerlərdəki boyaqxanaların əksəriyyəti il boyu fəaliyyət göstərirdi. Həm də göstərmək lazımdır ki, il boyu fəaliyyət göstərən boyaqxanaların əksəriyyəti toxuculuq məmulatlarını ancaq göy, bəzi hallarda isə yaşıl rəngə boyamaq üzrə ixtisaslaşmışdı. Xalçaçılıq sənətinin inkişaf etdiyi kəndlərdə daha çox mövsümi xarakter daşıyan ev boyaqxanaları sayca çoxluq təşkil etsələr də, mənbələrdə onlar haqqında olduqca az məlumat verilir.

İstər xanlıqlar, istərsə də rus müstəmləkəçiliyi dövründə boyaqçılıq işi xəzinənin mühüm gəlir mənbələrindən birini təşkil edirdi. 1823-cü ildə boyaqçılıqdan toplanan vergi maddəsi Naxçıvan dairəsi üzrə 370 tümənə, Ordubad dairəsi üzrə isə 5030 tümənə iltizama verilmişdi.[97]

XIX əsrin sonlarına doğru Naxçıvan şəhərində və qəzasında boyaqçılıq sənəti daha çox inkişaf etmişdi. Əldə olan rəsmi mənbələrin məlumatına görə, təkcə Naxçıvan şəhərində 1897-1898-ci illərdə 8 boyaqxana faəliyyət göstərirdi. Hər birində, orta hesabla, bir usta və bir şagirdin çalışdığı bu emalatxanaların illik istehsal gücü 1600-2000 rubl təşkil edirdi. Bütün Naxçıvan qəzasında fəaliyyət göstərən boyaqçılıq emalatxanalarının sayı isə əsrin sonuncu illərində 14-ə çatmışdı. Ümumilikdə 28 nəfər usta və şagirdin çalışdığı bu emalatxanalarda ildə 3500 rubl dəyərində məhsul istehsal edilirdi.[98]

XX əsrin ilk illərindən başlayaraq Naxçıvan diyarında boyaqçılıq sənətində müəyyən geriləmə müşahidə edilirdi. Bu vəziyyət, ilk növbədə, diyarda toxuculuq sənətində baş verən tənəzzüllə bağlı idi. Daha doğrusu, boyaqçılıq sənəti üçün əsas xammal olan parça toxuculuğunun həcminin azalması boyaqxanaların da istehsal gücünün azalmasına səbəb olmuşdu.

---

[96] Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı: Elm, 2001, s.93, 135

[97] Qriqoryev V. Göstərilən əsəri, s.112, 200

[98] Обзор Эриванской губернии за 1899 год. Эриван: 1900, с.13

Bunu Ordubad şəhərində fəaliyyət göstərən emalatxanaların timsalında aydın görmək olar. XIX əsrin 60-cı illərində Ordubadda fəaliyyət göstərən boyaqxanaların hər birinin illik istehsal gücü 280-350 rubl olduğu halda, 1905-ci ildə burada fəaliyyət göstərən 3 emalatxananın ümumi illik istehsal gücü cəmi 400 rubl təşkil etmişdi.[99]

Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan diyarında da toxuculuq məhsullarının boyanması ağır zəhmət, yüksək bilik və bacarıq tələb edən üç mərhələyə - boyamağa hazırlıq, boyama və boyağın möhkəmləndirilməsi mərhələlərinə bölünürdü.[100] Məmulatın boyamağa hazırlanması və boyağın möhkəmləndirilməsi üçün çoxlu sayda materialdan istifadə edilirdi. Bu işdə ən geniş yayılmış vasitə zəy və zəy qarışdırılmış alça lavaşanası hesab edilirdi.

Naxçıvan diyarında boyaqçılıq sənətinin inkişafında heyvan və bitki mənşəli boyaq vasitələrinin bolluğu mühüm rol oynamışdı. Boyaqçılıqda istifadə edilən heyvan mənşəli boyaq vasitələrinin sırasına purpur, karmin, qırmız, koşenil, sandal və s. daxil idi. Naxçıvan diyarında "qırmız" adlanan böcəklərdən qırmızı rəng almaq üçün geniş istifadə edilirdi. Baharlının verdiyi məlumata görə, Araz çayının sahillərindəki duzlu bataqlıqlarda yayılmış bu böcəyi ətraf kəndərdə yaşayan əhali yığaraq boyaqçı sənətkarlara satırdı.[101]

Naxçıvan boyaqçıları daha çox bitki mənşəli boyaq vasitələrindən istifadə edirdilər. Diyarın özündə yetişən və kənardan gətirilən boyaqotu bitkisindən daha çox qırmızı rəng almaq üçün istifadə edilirdi. Bu bitkinin kökündən hazırlanmış məhlulun tərkibinə müxtəlif qatqılar əlavə etməklə daha bir neçə rəng və rəng çaları almaq olurdu.[102] Toxuculuq məmulatlarının göy rəngə boyanması üçün əsas xammal olan indiqo Hindistandan gətirilirdi. Boyaqçılar həm də bir çox meyvə və yabanı ağacların kökündən, qabığından, yarpaq və meyvələrindən də geniş istifadə edirdilər. Ümumiyyətlə, boyaqçılar toxuculuq məmulatlarının bədii tərtibatı zamanı 50-yə yaxın rəng və rəng çalarından istifadə edirdilər.[103]

Dissertasiyanın dördüncü fəsli **"Təbii xammal ehtiyatlarının emalı ilə bağlı sənət sahələri"** adlanır. Birinci yarımfəsildə tədqiq olunan dövrdə

---

[99] Vahidova X. Göstərilən əsəri, cəd.6; Çernoyarski N. Göstərilən əsəri, s.409-417

[100] Quliyev H.A. XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda yun ipin xalq üsulu ilə boyadılmasının tarixi və öyrənilməsi haqqında. //AEM, I buraxılış. Bakı: 1964, s.15

[101] Бахарлы. Азербайджан. Баку: 1921

[102] Пиралов А.С. Краткий очерк кустарных промыслов Кавказа. Изд-е второе. Санкт Петербург, 1913, с. 29-30

[103] Quliyev H.A. Göstərilən əsəri, s.35

**“Metalişləmə”** sənətinin vəziyyəti tədqiq edilmişdir. Əldə olan materialların təhlili əsasında göstərilmişdir ki, Naxçıvan diyarında misgərlik sənəti istisna olmaqla, metalişləmə sənətinin yerli xammal bazası xeyli zəif idi. Buna baxmayaraq, tədqiq olunan dövrdə Azərbaycanın əksər bölgələri üçün xarakterik olan sənət sahələri – dəmirçilik, misgərlik, qalayçılıq, nalbəndlik, zərgərlik, gümüşbəndlik, çilingərlik, silahsazlıq Naxçıvan diyarında da yayılmışdı.

Naxçıvan diyarında metalişləmə sənətinin ən geniş yayılmış sahəsini dəmirçilik təşkil edirdi. Dissertasiyanın bu bölməsində müxtəlif mənbələr əsasında tərtib edilmiş cədvəlin məlumatından aydın olur ki, XIX əsrin 30-cu illərində Naxçıvan şəhərində 20-40, 60-80-ci illərində isə 28-48 nəfər dəmirçi fəaliyyət göstərirdi. Rusiyanın fabrik-zavod istehsalının güclü təsirinə məruz qalmış digər bölgələrdən fərqli olaraq, Naxçıvan diyarında dəmirçilik sənəti yüksələn xətlə inkişaf edirdi. Yenə də həmin cədvəlin məlumatından aydın olur ki, 1852-ci ildə Ordubad şəhərində cəmi 4 dəmirçi işlədiyi halda, 1886-cı ildə onların sayı 48 nəfərə çatmşdı. Dəmirçilik məmulatlarına tələbatın böyük olması bu sənətin kənd yerlərində də yayılmasına səbəb olmuşdu. 1865-ci ildə Naxçıvan qəzasında qeydə alınmış 198 nəfər dəmirçinin 21 nəfəri Naxçıvan şəhərində, yerdə qalanları isə kənd yerlərində fəaliyyət göstərirdi.[104] Dəmirçilər kənd təsərrüfatında, sənətkarlıqda və məişətdə istifadə edilən müxtəlif növ məmulatlar istehsal edirdilər.

Metalişləmə sənətinin digər geniş yayılmış sahəsini misgərlik təşkil edirdi. Öyrənilən dövrdə Naxçıvan diyarında misgərlik sənətinin başlıca mərkəzi Ordubad şəhəri idi. Şəhərin yaxınlığında zəngin mis yataqlarının olması bu məsələdə mühüm rol oynamışdı. XIX əsrin əvvəllərində Ordubadda 8 misgər emalatxanası fəaliyyət göstərirdi və onlarda 40 nəfər işçi (8 usta, 20 kargər və 12 şagird) çalışırdı.[105] Şəhərdə çalışan misgərlərin sayı XIX əsrin ikinci yarısında bir qədər də artmış, 1867-ci ildə 47 nəfərə çatmışdı. Bununla belə, Rusiyada maşınlı sənayenin inkişafının mənfi təsiri özünü bu sahədə də göstərmişdi. 1886-cı ilin məlumatına görə, şəhərdə misgərlərin sayı, təxminən iki dəfə azalaraq 20 nəfərə enmişdi.[106] Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan diyarında da çox geniş çeşiddə mis qablar istehsal edilirdi. Bunlar öz təyinatlarına görə xörək qablarına, su qablarına, məişət əşyalarına bölünürdü.

---

[104] Сборник статистических сведений о Кавказе. т. I, Приложение

[105] Егиазаров С.А. Исследования по истории учреждений в Закавказье. ч..II, Городские цехи. Казань: 1891, с. 379-380

[106] Vahidova X. Göstərilən əsəri, s.180

Əhalinin məişətində mis qabların geniş yer tutması qalayçılıq sənətinin də inkişafını zəruri edirdi. Misgərliklə təxminən eyni vaxtda meydana gəlmiş qalayçılıq uzun müddət səyyar xarakter daşısa da, artıq XVIII əsrdən bir növ "oturaqlaşmağa" başlamışdı. XIX əsrdə Naxçıvan şəhərində 3 nəfər, Ordubad şəhərində isə 8 nəfər qalayçılıqla məşğul olurdu.[107]

Uzun müddət metalişləmə sənətinin aparıcı sahələrindən biri olmuş zərgərlik sənəti Naxçıvan diyarında qədim tarixə malikdir. X əsr müəllifi İbn Hövqəl zərgərlik sənətinin mühüm mərkəzləri sırasında Naxçıvanın da adını çəkir. Tədqiq olunan dövrdə zərgərlik sənəti istifadə edilən xammala görə iki müstəqil sahəyə - gümüşbəndlik və zərgərlik sahələrinə bölünmüşdü. Mənbələrdə verilən statistik məlumatlar göstərir ki, zərgərliklə müqayisədə gümüşbəndlik daha geniş yayılmışdı. XIX əsrin 30-cu illərində tərtib edilmiş kameral təsvirlərə görə, Naxçıvan şəhərində 18 nəfər, Ordubad şəhərində isə 5 nəfər gümüşbəndliklə məşğul olurdu.[108] Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan diyarında da zərgərlər və gümüşbəndlər baş, boyun, bilək, barmaq, bel və paltar bəzəkləri hazırlayırdılar. Burada baş bəzəkləri "qarabatdağ araşqın", boyunbağılar isə "çəçik" və "xirtdəklik" adı ilə istehsal edilirdi.[109]

Tədqiq olunan dövrdə Naxçıvan diyarında metalişləmə sənətinin ənənəvi sahələrindən birini də silahsazlıq təşkil edirdi. Diyarın Rusiya tərəfindən işğalına qədərki dövrdə bölgədə mövcud olan mürəkkəb hərbi-siyasi şərait həm odlu, həm də soyuq silah istehsalını zəruri edirdi. Bununla belə, diyarda silah istehsalının geniş yayılmasından danışmaq olmur. XIX əsrin 30-cu illərində Naxçıvan və Ordubad şəhərlərinin hər birində cəmi 3 nəfərin tüfəng, 3 nəfərin isə tüfəng üçün qundaq istehsalı ilə məşğul olması da bunu təsdiq edir.[110] Əsrin sonrakı illərində də bu sahədə elə bir ciddi dəyişiklik olmamışdı. Buna baxmayaraq, diyarda öz işinin əsl ustası olan silahsazlar da yaşayırdı. Bəzi məlumatlara görə, Ordubaddan olan Fərəc adlı silahsaz "Kolt" və "Adams" sistemli yeni odlu silahların istehsalını əla mənimsəmişdi. Onun hazırladığı revolver 1863-cü ildə Tiflisdə keçirilən sərgidə mükafata layiq görülmüşdü.[111] Diyarda fəaliyyət göstərən çoxsaylı çilingərlər digər işlərlə yanaşı, soyuq silah istehsalı və onların təmiri ilə məşğul olurdular.

---

[107] Сборник статистических сведений о Кавказе. т. I, с.48

[108] ADTA: f. 10, siy.1, iş 353, v.18; iş: 372, v.17

[109] Mustafayev A.N. Azərbaycanda sənətkarlıq, s. 200-201

[110] Azərbaycan DTA, f. 10, siy.1, iş 351, v.15-18; iş 372, v.16

[111] Paşayev A.Göstərilən əsəri, s.27.

Bu fəslin **"Tikinti sənəti"** adlanan ikinci yarımfəslində göstərilmişdir ki, Naxçıvan diyarı sənətkarlığın bu sahəsində zəngin ənənələri olan bölgələrdən biri olmuşdur. XII əsrin sonu-XIII əsrin əvvəllərində tərtib edilmiş mənbələrdən birində Naxçıvan şəhərində tikilmiş qalalar, qəsrlər, saraylar, yaşayış evləri, məscidlər, mədrəsələr və digər tikililər haqqında böyük heyranlıqla danışılır.[112] Lakin sonrakı əsrlərdə, xüsusilə XVI-XVII əsrlərdə baş vermiş müharibələr Naxçıvan diyarında tikinti sənətinə ağır zərbə vurdu.

Yarımfəsildə əldə olan mənbələrə əsaslanaraq tədqiq olunan dövrdə Naxçıvan diyarında tikinti sənətinin inkişafı iki mərhələyə bölünür. XVIII əsrin əvvəllərindən XIX əsrin 30-cu illərinədək olan birinci mərhələdə Naxçıvan diyarında tikinti sənəti dərin tənəzzülə uğramışdı. Bu dövrdə vaxtaşırı baş verən müharibələr nəinki yeni tikililərin inşa edilməsinə, hətta əvvəllər inşa edilmiş və müharibələr nəticəsində dağıdılmış tikililərin bərpasına imkan vermirdi. Heç də təsadüfi deyildir ki, Naxçıvan şəhəri XIX əsrin əvvəllərində "aralarında ancaq daxmalar yerləşən xarabalıqlardan" ibarət idi.[113]

Rusiya-İran müharibəsinin başa çatmasından XX əsrin əvvəllərinə qədər davam etmiş ikinci mrəhələdə Naxçıvan diyarında tikinti sənətinin inkişafı üçün daha əlverişli şərait yaranmışdı. Bu özünü həm tikinti işlərinin həcminin, həm də bu sənətlə məşğul olan sənətkarların sayının artmasında göstərirdi. Belə ki, 1831-1832-ci illərdə Naxçıvan şəhərində 7, Ordubad şəhərində 8 nəfər bənna çalışdığı halda, 3-4 il sonra onların sayı müvafiq olaraq Naxçıvanda 35 nəfərə, Ordubadda isə 17 nəfərə çatmışdı. Bu artım özünü Naxçıvan diyarında əsas tikinti materialı olan kərpic istehsalında da göstərirdi. XIX əsrin ortalarından başlayaraq Naxçıvan şəhərində 13, Ordubad şəhərində isə 15 kərpic istehsal edən müəssisə fəaliyyət göstərirdi.[114]

Tədqiq olunan dövrdə Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan diyarında da tikinti sənətində 4 əsas istiqamət özünü aydın şəkildə göstərirdi. Birinci istiqamətə hərbi-müdafiə xarakterli tikililər, ikinci istiqamətə ticarət və sənətkarlıq obyektləri, üçüncü istiqamətə yaşayş evləri və saraylar, dördüncü istiqamətə isə dini-memorial tikililər aid idi.

Azərbaycanın digər bölgələri ilə müqayisədə Naxçıvan diyarının ərazisində hərbi-müdafiə xarakterli tikililərin sayı elə də çox deyildi. Xüsusilə xanlıqlar dövründə diyarda hərbi əməliyyatlar intensiv xarakter alsa da, iqti-

112 Михлуко-Маклай Н.Д. Географическое сочинение XIII в. на персидском языке. //Ученые записки ИВ АН СССР, т. IX, 1954, №79, с.76

113 ADTA: f. 10, siy.1, iş 353, v.6

114 Sumbatzadə Ə.S. Göstərilən əsəri, s. 189-200

sadi cəhətdən xeyli zəif olan Naxçıvan xanları belə obyektləri tikdirmək iqtidarında deyildilər. Bu dövrdə diyarda hərbi-müdafiə xarakterli yeganə möhtəşəm tikili Qacar şahzadəsi Abbas Mirzənin əmri ilə 1809-1810-cu illərdə Araz çayının sahilində inşa olunmuş Abbasabad qalasıdır. Daşla ikiqat hörülmüş qala divarlarının ətrafına lazım gəldikdə içərisi su ilə doldurulan dərin xəndək qazılmışdı. Qalanın ətrafında çoxsaylı istehkamlar inşa edilmişdi.[115]

Naxçıvan diyarında tikinti sənətinin ən aparıcı istiqamətlərindən birini yaşayış binalarının inşası təşkil edirdi. Diyarda saray tikintisinin yeganə nümunəsi olan Naxçıvan xanlarının sarayı XVIII əsrin sonlarında Kalbalı xan tərəfindən inşa etdirilmişdi. Orijinal memarlıq üslubunda ikimərtəbəli tikilmiş saray bəzək elementlərinin azlığı və sadəliyi ilə diqqəti cəlb edir.

Naxçıvan diyarında, xüsusilə Naxçıvan şəhərində yaşayış evlərinin tikintisində daha çox çiy, qismən isə bişmiş kərpicdən istifadə edilirdi. Evlərin əksəriyyəti yastı damlı olmaqla, birmərtəbəli tikilir, küçə tərəfdən hündür hasarlarla əhatə olunurdular. Naxçıvan şəhərindən fərqli olaraq, Ordubadda yaşayış evləri daha orijinal memarlıq üslubunda ikimərtəbəli tikilir və onların əksəriyyəti 8 bucaqlı dəhlizlərlə təchiz edilirdi. Şəhərin Sərşəhər məhəlləsində XVIII əsrdə inşa edilmiş 5 belə yaşayış evi XX əsrə qədər salamat qalmışdı.[116]

XVIII əsrin ikinci yarısı-XX əsrin əvvəllərində Naxçıvan diyarında tikinti sənətinin digər sahələri ilə müqayisədə ticarət-sənətkarlıq obyektlərinin inşası daha intensiv aparılmışdı. Diyarın beynəlxalq ticarət yolları üzərində əlverişli mövqe tutması burada bazarların, karvansaraların, sənətkar emalatxanalarının, ticarət dükanlarının, körpü və hamamların tikintisini zəruri edirdi. Tədqiq olunan dövrdə diyarın müxtəlif yerlərində inşa edilmiş ticarət-sənətkarlıq obyekti kimi Biləv, Bist və Ələhi körpülərini, Naxçıvan və Ordubad şəhərlərində tikilmiş hamamları, indiki Şahbuz rayonunun Biçənək kəndinin şimalında tikilmiş karvansaranı göstərmək olar.

Tədqiq olunan dövrdə Naxçıvan diyarında tikinti sənətinin ən aparıcı istiqamətlərindən birini dini-memorial obyektlərin inşası təşkil edirdi. Məscid tikintisi xüsusilə geniş miqyasda aparılırdı. Yalnız Naxçıvan və Ordubad şəhərlərində deyil, kəndlərdə də xeyli sayda Cümə məscidi tikilib istifadəyə verilmişdi. Ordubad şəhərində məscid tikintisi daha geniş miqyasda aparılmışdı. XIX əsrin 30-cu illərinə aid məlumata görə, şəhərdə 6 cümə və 25 məhəllə məscidi fəaliyyət göstərirdi.[117]

---

[115] Нефедов Н. Взгляд на армянскую область в путевых записках. Санкт Петербург, 1833, с.47

[116] Салаева Р. Нахчыван-наследие архитектуры. Баку: Азербайджан, 2002, с.28-30

[117] Şopen İ. Göstərilən əsəri, s.787

Dördüncü fəslin **"Dulusçuluq"** adlanan üçüncü yarımfəslində saxsı məmulatı istehsalının Naxçıvan diyarında qədim tarixə malik olması göstərilir. Bununla belə, diyarda dulusçuluq sənətində vaxtaşırı baş verən hərbi-siyasi xarakterli hadisələrin təsiri altında tənəzzül və yüksəliş bir-birini əvəz etmişdir. Tədqiq olunan dövrün birinci mərhələsində, daha doğrusu, XVIII-XIX əsrin əvvəlləri diyarda bu sənət daha dərin tənəzzülə uğramışdı. Bu dövrdə müəyyən fasilələrlə davam etmiş yadelli hücumlar və ara müharibələri, hər şeydən əvvəl tikinti keramikasına ağır zərbə vurmuşdu. Yaranmış şəraitdə mülki tikinti işlərinin miqyasının kəskin şəkildə aşağı düşməsi və bu tikililərdə indiyə qədər geniş istifadə edilən kaşı və digər vasitələrdən, demək olar ki, istifadə edilməməsi keramika məmulatı istehsalının faktiki olaraq dayanmasına gətirib çıxarmışdı.

XVIII ərdə və XIX əsrin əvvəllərində baş vermiş müharibələr dulusçuluq sənətinin həm də kənd yerlərində yayılmasına gətirib çıxarmışdı. İ.Şopen bu dövrdə Naxçıvan xanlığının kəndlərində 33 nəfər sənətkarın saxsı qab istehsalı ilə məşğul olması haqqında məlumat verir.[118] Elə həmin dövrdə xanlığın Təzəkənd adlı yaşayış məntəqəsində, daha çox saxsı səhəng istehsalı üzrə ixtisaslaşmış dulusçuluq emalatxanası fəaliyyət göstərirdi.[119]

Əldə olan materialların təhlili götərir ki, XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Naxçıvan diyarında şəhər və kənd dulusçuluğu fərqli inkişaf meyllərinə malik olmuşdur. Yüksəliş və tənəzzülün tez-tez bir-birini əvəz etməsi daha çox şəhər dulusçuluğu üçün xarakterik idi. Naxçıvan şəhərində 1859-cu ildə 3 dulus emalatxanası fəaliyyət göstərdiyi halda,[120] XIX əsrin 70-ci illərində onların sayı kəskin şəkildə artaraq 16-ya çatsa da, sonradan yenidən dərin tənəzzül baş vermişdi. Bu dövrdə şəhərdə fəaliyyət göstərən hər emalatxanada cəmi 2 nəfər sənətkar çalışırdı.[121]

Ordubad şəhərində dulusçuluq sənətinin miqyası daha məhdud idi. 1869-cu il istisna olmaqla, bütün XIX əsr ərzində burada cəmi bir dulusçuluq emalatxanası fəaliyyət göstərirdi. Bu emalatxana əvvəlcə yararsız hala düşmüş karvansarada, sonra isə emalatxana sahibinin evində yerləşirdi. Burada istehsal edilən şirsiz qablar ancaq yerli əhalinin tələbatını ödəyirdi.[122]

Ordubadda fəaliyyət göstərən dulus emalatxanasında istehsal edilən məhsulun həcmi vaxtaşırı olaraq dəyişmiş və XX əsrin əvvəllərinə doğru

---

[118] Yenə orada, s.843-844

[119] Qriqoryev V.Göstərilən əsəri, s. 200

[120] ADTA: f. 10, siy.2, iş: 9, v.1-394

[121] Sumbatzadə Ə.S. Göstərilən əsəri, s.151

[122] Кавказский календарь на 1868 год. Тифлис, 1867, с.413

daha çox azalmağa meyilli olmuşdur. Əgər 1856-1867-ci illərdə bu emalatxana ildə, orta hesabla 300-450 rubl dəyərində məhsul istehsal etmişdisə, 1905-ci ildə onun istehsal gücü cəmi 100 rubl təşkil etmişdi.[123]

Göründüyü kimi, Naxçıvan və Ordubad şəhərlərində XIX əsrin 60-70-ci illərində dulusçuluq sənətində müəyyən yüksəliş hiss edilsə də, bu həmin əsrin 90-cı illərindən başlayaraq tədricən dönməz xarakter alan tənəzzüllə əvəz olunmağa başladı. Əslində ümumazərbaycan xarakteri daşıyan bu tənəzzülün ən başlıca səbəblərindən birini xarici ölkələrdən çini qabların kütləvi idxal edilməsi təşkil edirdi.

Əldə olan məlumatlar göstərir ki, XIX əsrin sonu-XX əsrin əvvəllərində Naxçıvan diyarında dulus məmulatı istehsalında müşahidə edilən tənəzzül daha çox şəhər karxanaları üçün xarakterik idi. Nisbətən fərqli zəmində fəaliyyət göstərən kənd dulusçuluğu bu tənəzzüldən, bir növ yan keçə bilmişdi. Xarici ölkələrdən gətirilən çini qablar əksər hallarda şəhər əhalisinə satılır, bununla da şəhər dulusçularının fəaliyyətini iflic hala salırdı. Ucqar kəndlərə gedən yolların bərbad vəziyyətdə olması, digər sənaye məhsulları kimi, çini qabların da yerlərə çatdırılmasını çətinləşdirirdi. Elə bu səbəbdən də kənd əhalisinin müxtəlif növ qablara olan tələbatı kənd dulusçuları tərəfindən ödənilirdi. XIX əsrin 90-cı illərində Naxçıvan, Ordubad, Dərələyəz qəzalarında dulusçuluqla məşğul olan kənd sənətkarlarının sayı 90 nəfərə çatırdı.[124] Onlar istehsal etdikləri məhsulun bir hissəsini şəhərlərdə təşkil edilən həftə bazarlarına çıxarmaqla şəhər əhalisinin də saxsı qablara olan tələbatını ödəyirdilər.

Dissertasiyasnın dördüncü fəslinin sonuncu – dördüncü yarımfəsli **“Dağ-mədən sənayesi”** adlanır. Tədqiq olunan dövrdə bu sənaye bir neçə sahə ilə təmsil olunsa da, duz istehsalı aparıcı mövqeyə malik idi. Diyarda yerləşən zəngin duz yataqlarının istismarı ilə əsrlər boyu Cəhri, Şıx Mahmud və Sust kəndlərinin əhalisi məşğul olurdu. Duz ehtiyatlarının bolluğuna baxmayaraq, bütün XVIII əsrdə və XIX əsrin birinci yarısında diyarda və ətraf bölgələrdə duza tələbatın məhdudluğu və istehsal olunmuş məhsulun digər yerlərə daşınmasındakı çətinliklər duz yataqlarının daha geniş miqyasda istismarına imkan vermirdi. Adətən, duz təpələrindən birində açılan yalnız bir mədən bir neçə il fasiləsiz istismar edilirdi və burada iş yatağın ehtiyatı tükənənə qədər davam edirdi.[125]

---

[123] Vahidova X. Göstərilən əsəri, səd.6

[124] Записки КОИРТО, т. XVIII, вып.1, Тифлис, 1886, с.28

[125] Qriqoryev V. Göstərilən əsəri, s.17

Duz istehsalı mövsümi xarakter daşıyırdı. Mart-aprel və oktyabr-noyabr aylarında mədənlərdə çalışan 48 nəfərlik işçi qrupu, təxminən 20 min pud duz istehsal edirdi. Duza tələbatın həddən artıq çoxaldığı yay fəslində qruplara daxil olan işçilərin sayı 2-3 dəfə artaraq 18-20 nəfərə çatırdı.[126] Rus işğalı ərəfəsində və onun ilk illərində Naxçvan duz mədənlərinin illik istehsal gücü 120 min pud təşkil edirdi.

Rus müstəmləkəçiliyi dövründə də duz mədənlərində çalışan işçilərin sayında elə bir artım baş verməmişdi. XIX əsrin son rübünə aid olan statistik məlumatlardan aydın olur ki, Naxçıvan duz mədənlərində 1877-ci ildə - 38 nəfər, 1885-ci ildə - 18 nəfər, 1886-cı ildə - 40 nəfər, 1888-ci ildə - 14 nəfər, 1890-cı ildə - 20 nəfər, 1891-ci ildə - 26 nəfər, 1892-ci ildə isə 13 nəfər işçi çalışmışdır.[127] Göründüyü kimi, yalnız 1877 və 1886-1887-ci illərdə mədənlərdə çalışan işçilərin sayı iki dəfə artaraq 38-40 nəfər təşkil etmişdi.

Bu yarımfəsildə duz mədənlərinin mülkiyyət məsələsi də araşdırılmışdır. Bu araşdırmalar göstərir ki, hələ XVIII əsrin ortalarından başlayaraq Naxçıvan xanlarının mülkiyyətində olan duz mədənləri hər il, duza tələbatdan asılı olaraq, 30-300 tümən müqabilində iltizama verilirdi. İltizamçı həm də Naxçıvan xanlarını duzla pulsuz təmin etməyi öz öhdəsinə götürürdü.[128] Oxşar vəziyyət Qacar hakimiyyəti dövrü üçün də xarakterik idi. Yeganə dəyişiklik duzun hər batmanının satış qiymətinin 3 qəpikdən 8 qəpiyə qaldırılmasında özünü göstərirdi.

Rusiya işğalından sonra Naxçıvan duz mədənləri iltizam sistemini, demək olar ki, dəyişilməz saxlayan çar hökumətinin mülkiyyətinə keçdi. İlk dövrlərdə bu sahədə baş verən əsas dəyişiklik iltizam müddətinin artırılaraq 3-4 ilə çatdırılmasından ibarət oldu. Görülən bu və digər tədbirlər xəzinənin illik gəlirinin kəskin şəkildə artmasına gətirib çıxardı. Belə ki, 1830-1833-cü illərdə xəzinənin bu sahədən əldə etdiyi illik gəlir, orta hesabla, 3 min rubl təşkil etdiyi halda, 1836-cı ildən başlayaraq onun illik həcmi 7220 rubla çatmışdı.[129]

XIX əsrin ikinci yarısından başlayaraq, Naxçıvan duz mədənlərində məhsul istehsalı xeyli artdı. Müqayisə üçün göstərək ki, xanlıqlar dövründə burada duz istehsalının illik həcmi 120 min pud təşkil etdiyi halda, 1855-ci

---

[126] Şopen İ. Göstərilən əsəri, s.836

[127] Кавказский календарь на 1876 год, Тифлис: 1875, с.153; на 1877 год, с. 33-102; на 1887 год, с.135; на 1888 год, с.96; на 1889 год, с.154; на 1890 год, с.65; на 1892 год, с.32

[128] Şopen İ. Göstərilən əsəri, s.837

[129] Şopen İ. Göstərilən əsəri, s.838

ildə bu göstərici 428,261 pud təşkil edirdi. Diyarda duz istehsalının həcmində baş vermiş kəskin artım çar hökumətinin Krım müharibəsi ilə əlaqədar xarici ölkələrdən duz idxalına qadağa qoyması ilə əlaqədar idi.[130]

Naxçıvanın duz istehsalında yeni mərhələ XIX əsrin sonu-XX əsrin əvvəllərindən başladı. Bütün ölkədə duza tələbatın getdikcə artması onun istehsalını genişləndirmək zərurəti yaradırdı. Bunu nəzərə alan çar hökuməti Sust və Cənnət kəndləri yaxınlığında yerləşən daha iki mədənin istismarına başlamağa məcbur oldu. 1907-ci ildən etibarən Sust mədənlərinin istismarı ilə "Kəlbəlixanov qardaşları və K$^{O}$" şirkəti məşğul olmağa başladı. Görülən bu tədbirlər duz istehsalının artması ilə nəticələndi. Belə ki, 1896-cı ildə xəzinəyə məxsus mədənlərdə 168.324 pud duz istehsal edildiyi halda, 1905-ci ildə onun həcmi 504 min puda çatmışdı.[131]

Naxçıvanda duz istehsalı 1911-1913-cü illərdə öz inkişafının ən yüksək səviyyəsinə çatmışdı.[132] Əldə olan statistik məlumatlar həmin illərdə Naxçıvan duz mədənlərindən ildə ən azı 600-800 min pud duz əldə edildiyini göstərir. Lakin 1914-cü ildə başlanmış I Dünya müharibəsi diyarda duz istehsalının kəskin şəkildə aşağı düşməsinə səbəb oldu.

Dissertasiyanın beşinci fəsli **"XVIII-XX əsrin əvvəllərində Naxçıvan diyarında ticarətin vəziyyəti"** adlanır və 3 yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə **"Ticarət yollarının vəziyyəti"** tədqiq olunmuşdur. Əldə olan məlumatlar göstərir ki, Naxçıvan diyarı hələ qədim zamanlardan ticarət yolları üzərində çox əlverişli mövqe tutmuşdu. Bu ticarət yolları diyarın Azərbaycanın digər vilayətləri ilə yanaşı, Çin, Hindistan, İran, Osmanlı Türkiyəsi, Rusiya və Qərbi Avropa ölkələri ilə ticarət əlaqələri saxlamasına imkan verirdi. Böyük İpək Yolunun daha intensiv işlədiyi dövrlərdə Çin və Hindistan malları İrandan keçməklə, Naxçıvan ərazisinə daxil olur və buradan Naxçıvan-Tiflis-Qara dəniz və Naxçıvan- İrəvan–İstanbul tranzit ticarət yolları vasitəsilə Avropaya aparılırdı.[133] Onu da göstərmək lazımdır ki, Böyük İpək Yolu öz əhəmiyyətini itirdikdən sonra da Naxçıvan-Tiflis-Qara dəniz yolu ilə ticarət karvanları intensiv hərəkət edirdilər.

Rus məmurlarının topladıqları məlumatlardan aydın olur ki, istər xan-

---

130 Кавказский календарь на 1880 год, Тифлис: 1869, с.275; на 1871 год, с. 303-312; на 1884 год, с. 152-159

131 Sumbatzadə Ə.S. Göstərilən əsəri, s.233

132 Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı: Elm, 2000, s.16-17; Rəhimov Y. I Rus inqilabından I Dünya müharibəsinə qədər Naxçıvanda sosial-istisadi vəziyyət //AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və Humanitar Elmlər Seriyası, 2013, №3, s.43

133 Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı: Elm, 1977, s.109; Övliya Çələbi. Səyahətnamə (türk dilindən işləyəni və şərhlərin müəllifi S.Onullahi). Bakı: Azərnəşr, 1997, s.37

lıqlar dövründə, istərsə də rus işğalının ilk onilliklərində Naxçıvan diyarının ərazisindən tranzit ticarət yolları ilə yanaşı, yerli və ölkə əhəmiyyətli geniş yollar şəbəkəsi keçirdi.[134] Heç şübhəsiz ki, bu yolların əksəriyyəti Naxçıvan-Tiflis-Qara dəniz yolunun qolları idi.

Yarımfəsildə ticarət yollarının abadlığı, bu yollar üzərində tikilmiş körpülər, bərələr və karvansaralar, yükdaşımalarını həyata keçirən yük heyvanları haqqında ətraflı məlumat verilmişdir. Göstərilmişdir ki, tədqiq olunan dövrdə Araz çayı üzərində ticarət yollarına xidmət edən Culfa, Şahtaxtı, Bulqan, Abbasabad və Dərəşən bərə-keçid məntəqələri fəaliyyət göstərirdi.[135]

Cənubi Qafqazda dəmir yollarının çəkilməsinə qədər ticarət yüklərinin daşınmasında at, dəvə, qatır, kəl və öküzlərdən istifadə edilirdi. Mənbələrdən birinin verdiyi məlumata görə, 1866-cı ildə Ordubada 1138 yük heyvanından ibarət 99 ticarət karvanı daxil olmuş, 580 yük heyvanından ibarət 58 ticarət karvanı isə oranı tərk etmişdi.[136] Naxçıvan diyarında mövcud olan yolların əksəriyyəti arabalarla yük daşımaları üçün ciddi çətinlik yaratdığından, daşımaların əksəriyyəti atlar vasitəsilə həyata keçirilirdi. At və dəvələrdən təşkil olunan ticarət karvanlarının təşkili ilə çarvadarlar məşğul olurdu. Naxçıvandan Biçənək keçidi vasitəsilə Şuşaya olan 200 verstlik yolu 8 günə gedən çarvadar hər at yükünə görə tacirdən 4 rubl 80 qəpik pul alırdı[137]. Dəvələr atlara nisbətən 2-3 dəfə artıq yük götürə bildiklərinə, aclığa və susuzluğa daha dözümlü olduqlarına görə uzaq məsafələrə yük daşımaları zamanı onlardan istifadə edilirdi. XIX əsrin son rübündə təkcə Şərur qəzasında bu məqsədlə saxlanılan dəvələrin sayı 310 başa çatırdı.[138]

Azərbaycanın Rusiya tərəfindən işğalından sonra ticarət yollarının abadlaşdırılması istiqamətində atılan addımlar əksər hallarda ötəri xarakter daşıyırdı. Çar hökuməti yalnız XIX əsrin 60-cı illərindən başlayaraq bu istiqamətdə müəyyən işlər görməyə başladı. Yolların vəziyyətini öyrənmək, onları abadlaşdırmaq üçün zəruri tədbirləri müəyyənləşdirmək məqsədi ilə yüksək rütbəli zabitlərdən ibarət komissiya yaradıldı. Komissiya iqtisadi və hərbi əhəmiyyətinə görə yolları bir neçə qrupa böldü. Culfa-Naxçıvan-Dilican-Ağstafa-Tiflis yolu birinci dərəcəli yollar sırasına daxil edildi və onun

---

[134] Şopen İ. Göstərilən əsəri, s.718

[135] Əliyev Q. Azərbaycan nəqliyyatı və iqtisadiyyatı. Bakı: Elm, 2001, s.32

[136] Çernoyarski N. Göstərilən əsəri, s.66

[137] Григоров Н. Село Татев Зангезурского уезда Елизаветпольской губернии // СМОМПК, вып. XIII, Тифлис, 1887, с. 98

[138] Марков Ф.Т. Экономический быт государственных крестьян в Эриванском уезде // МИЭБГК-ЗК, т. II, Тифлис: 1886, с.153

əksər hissəsi yararlı hesab edilsə də, müəyyən yerlərdə abadlıq işlərinin aparılması məsləhət görüldü.[139]

Komissiyanın hazırladığı hesabatda Naxçıvan, Biçənək və Zərdabdan keçərək Bakıya qədər uzanan ticarət yoluna böyük əhəmiyyət verilir və 1871-1873-cü illərdə İrəvan quberniyasında yolların çəkilişi və təmiri üçün ayrılmış 10 min rubl vəsaitin çox hissəsinin Naxçıvan-Biçənək-Zərdab yolunun tam yararlı hala salınması üçün sərf edilməsi təklif olunurdu.[140] Bütövlükdə XIX əsrin sonu-XX əsrin əvvələrində Azərbaycanın, o cümlədən Naxçıvan diyarının ticarət yollarının qaydaya salınması üçün xeyli iş görüldü. Əsas ticarət yolları üzərində körpülər inşa edildi, yollara daş və çınqıl döşənərək yük heyvanlarının və təkərli nəqliyyatın hərəkəti üçün yararlı hala salındı.

Naxçıvan diyarının ticarət əlaqələrinin, eləcə də iqtisadiyyatının inkişafında 1908-ci ildə istifadəyə verilmiş Uluxanlı-Culfa dəmir yolu xətti mühüm rol oynadı. Bu yol Naxçıvan diyarı vasitəsilə aparılan tranzit ticarət əlaqələrinin inkişafına da güclü təkan verdi. Təkcə o faktı göstərmək kifayətdir ki, 1908-ci ildən 1913-cü ilə qədər keçən müddət ərzində Naxçıvan diyarı vasitəsilə aparılan Rusiya-İran ticarətinin həcmi bir neçə dəfə artaraq 5.699.947 rubla çatmışdı.[141]

Beşinci fəslin ikinci yarımfəsli **"Daxili ticarət"** adlanır. Göstərilir ki, diyarda ticarətin inkişafı yerli istehsalın səviyyəsi, bölgənin tranzit-ticarət yolları üzərində tutduğu mövqe, daxili ticarət yollarının vəziyyəti, siyasi sabitlik və s. məsələlərlə sıx bağlı idi. Tədqiq olunan dövrün ilk mərhələsi, daha doğrusu, XVIII-XIX əsrin əvvəlləri ticarətin inkişafı üçün heç də əlverişli olmamışdır. Bütün bu dövr ərzində baş vermiş qanlı müharibələr və çəkişmələr ticarət əlaqələrinin inkişafına ciddi maneə törədirdi.

Tədqiq olunan dövrdə diyarda aparılan daxili ticarətin əsas predmetini kənd təsərrüfatı və sənətkarlıq məhsulları təşkil edirdi. Diyarın daxilində istehsal edilib onun hüdudlarından kənara çıxarılan sənətkarlıq məhsullarının çeşidi və həcmi elə də çox deyildi. Bunların sırasına xam ipək, misgərlik məhsulları, xalça məmulatı və duz daxil idi. Sənətkarlıq məhsullarının həcminin azlığı və aşağı keyfiyyətli olması onların xarici ticarətin predmetinə çevrilməsinə imkan vermirdi.[142]

---

[139] Герсеванов М. Н. Сеть главнейших дорог Закавказского края // Сборник сведений о Кавказе, т. I, Тифлис, 1871, с.13

[140] Yenə orada, s.17

[141] Краткий обзор коммерческой деятельности Закавказских железных дорог, с. 36, 49, 64-65

[142] Обзор Эриванской губернии за 1895 год, Эриван, 1896, с.7

Mövcud olan çətinliklərə baxmayaraq, ticarət Naxçıvan diyarında yaşayan əhalinin əsas məşğuliyyət növlərindən biri kimi qalırdı. 1854-cü ilin məlumatına görə, diyarda 1116 nəfər ticarətlə məşğul olurdu.[143] Əsrin sonlarında tacirlərin sayında xeyli artım baş vermişdi. Belə ki, 1897-ci ilin məlumatına görə, təkcə Naxçıvan qəzasında 1000 nəfər tacir var idi. Onların 439 nəfəri Naxçıvan, 211 nəfəri isə Ordubad şəhərində yaşayırdı.[144] Tacirlərin yerdə qalan 350 nəfərini kənd yerlərində yaşayanlar təşkil edirdi.

Daxili ticarət daha çox şəhərlərin mərkəzində yerləşən bazarlarda cəmləşmişdi. XVIII əsrin əvvəllərində Naxçıvan şəhərində müxtəlif malların satışı üzrə ixtisaslaşmış 5 bazarda – Xətib bazarı, Şeytanbazar, Çanaq bazarı, Turangi bazarı, Meydan bazarında 191 ticarət və sənətkar dükanı fəaliyyət göstərirdi. Bu bazarlarda "rəhdar" və "bazar bacı" adı altında toplanan vergilər iltizama verilirdi.[145]

Bütün XVIII əsr və XIX əsrin əvvəllərində baş vermiş hərbi əməliyyatlar Naxçıvanda ticarətə ağır zərbə endirmişdi. 1829-cu ilin məlumatına görə, Naxçıvan şəhərində fəaliyyət göstərən ticarət obyektlərinin 35-də parça, 19-da xırdavat, 53-də meyvə-tərəvəz, müxtəlif növ içkilər və çörək satılırdı. Bu dövrdə Ordubad şəhərində ticarət daha çox tənəzzülə uğramışdı. Bunu 1829-cu ildə şəhərdə cəmi 85 ticarət-sənətkarlıq obyektinin fəaliyyət göstərməsi də təsdiq edir.[146]

Rusiya işğalından sonra yaranmış sabitlik diyarda ticarətin bir qədər canlanmasına gətirib çıxardı. Onu da göstərmək lazımdır ki, bu dövrdə, Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan və Ordubad şəhərlərində də ticarətlə məşğul olanlar tacir zümrəsi kimi deyil, xəzinə kəndliləri kimi qeydə alınırdılar. Daha doğrusu, onlara ticarətə məşğul olmaq üçün heç bir sənəd verilmir və onlar gildiya dərəcələrinə bölünmürdülər. Buna baxmayaraq, tacirlərin sayında müəyyən artım müşahidə edilirdi. Belə ki, onların sayı 1863-cü ildə 271 nəfərə, 1897-ci ildə isə 439 nəfərə çatmışdı. Bu tacirlərin sırasına bəzzazlar, Avropa malları ilə ticarət edənlər, əttarlar, baqqallar və meyxana sahibləri daxil idi. XIX əsrin 60-cı illərində Naxçıvan şəhərində aparılan yerli ticarətin illik dövriyyəsi 113.200 rubla bərabər olmuşdu.[147]

Ordubad şəhərində daxili ticarətin həcmi daha sürətlə artırdı. Bunu

---

[143] Кавказский календарь на 1855 год. Тифлис, 1854, с.394-395

[144] Muradəliyeva E.B. Göstərilən əsəri, 108-109 c.

[145] Naxçıvan sancağının müfəssəl dəftəri, s.23-31

[146] Qriqoryev V. Göstərilən əsəri, s.96-97, 201

[147] Сборник статистических сведений о Кавказе. т.I, с.46-47

şəhərin illik ticarət dövriyyəsində və ticarət obyektlərinin sayında baş vermiş artım da təsdiq edirdi. Belə ki, XIX əsrin 60-cı illərində şəhərdə illik ticarət dövriyyəsi 52 min rubl təşkil edən 93 ticarət dükanı fəaliyyət göstərirdisə, cəmi 10 il sonra şəhər bazarında fəaliyyət göstərən 148 ticarət obyektinin illik ticarət dövriyyəsi 364 min rubl təşkil etmişdi.[148] Bəzi məlumatlara görə, XX əsrin əvvəllərində Ordubad şəhərində aparılan ticarət əməliyyatlarının həcmi 700-750 min rubla çatmışdı.[149]

Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan diyarında da ticarət əməliyyatlarına görə iki əsas vergi – rəhdar və mizan (qapan) pulu toplanılırdı. Rəhdar vergisi, bəzi mənbələrdə göstərildiyi kimi, heç də kənd təsərrüfatı və sənətkarlıqla məşğul olmağa görə deyil, bu sahələrdən əldə edilən məhsul satılarkən toplanılırdı. V.Qriqoryev yazırdı ki, "haradan gətirilməsindən, həm də haraya aparılmasından asılı olmayaraq, malların həm gətirilməsinə, həm də aparılmasına görə eyni miqdarda gömrük toplanılırdı".[150]

Bəhs olunan dövrdə Naxçıvan diyarında da rəhdar vergisi iltizama verilirdi. XIX əsrin 20-ci illərində bu vergi Naxçıvan şəhərində 1300, Ordubad şəhərində isə 1000 tümənə iltizama verilmişdi. İltizamçı aparılan və gətirilən malın həcminə və dəyərinə uyğun olaraq rəhdar toplayırdı. Bu verginin ticarətin inkişafına ciddi maneə törətdiyini görən çar hökuməti 1836-cı ildə onu ləğv etdi.

Şəhər bazarına gətirilən malların çəkilməsinə görə toplanan mizan pulu vergisinin Naxçıvan diyarında 3 növü mövcud idi: 1. Mizan pulu; 2. Xoşxəbər; 3. Əllaf. Bunlardan birincisi ildə 100, ikincisi 80, üçüncüsü isə 50 tümənə iltizama verilirdi. Oxşar vəziyyət Ordubad şəhəri üçün də xarakterik idi.[151]

Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan diyarında da uzun müddət ticarətin inkişafı yolunda ölçü, çəki və pul vahidlərinin müxtəlifliyi ciddi problemə çevrilmişdi. Yarımfəsildə göstərilmişdir ki, Naxçıvan diyarında tətbiq edilən bu ticarət vasitələrinin əksəriyyəti müxtəlif nisbətlərdə keçmiş Səfəvi imperiyasının bütün ərazisində yayılmışdı. Əsas uzunluq ölçüsü kimi arşından, çəki vahidi kimi isə batman, xalvar, çərək, qokka,

---

[148] Географическо-статистический словарь Российской империи. т. III, с.667; Vahidova X. Göstərilən əsəri, s. 107-108

[149] Fərəcov S. Göstərilən əsəri, s.87

[150] Qriqoryev V. Göstərilən əsəri, s.111

[151] Yenə orada, s.112, 210-212

bisti və s.-dən istifadə edilirdi. Rus müstəmləkə dövrünün ilk illərinə qədər Naxçıvan diyarında əsas mübadilə vasitəsi kimi daha çox İran tümənləri, sahibqran, panabad, mahmudiyyə, darülxlaf, gümüş səksənlik və yüzlükdən, habelə xırda mis pullardan istifadə edilirdi.[152] Ölçü, çəki və pul vahidlərinin müxtəlifliyinin ticarətin inkişafı yolunda ciddi əngələ çevrildiyini görən Rusiya hökuməti işğaldan bir qədər sonra onları rus ölçü, çəki və pul vahidləri ilə əvəz etdi.

Dissertasiyanın beşinci fəslinin üçüncü yarımfəsli **"Xarici və tranzit ticarət"** adlanır. Burada göstərilir ki, çox əlverişli mövqeyə malik olan Naxçıvan diyarı əsrlər boyu müxtəlif ölkələr arasında aparılan tranzit ticarətin faəl iştirakçılarından olmuşdur. Təbrizdən Tiflis vasitəsilə Qara dəniz sahillərinə, Təbrizdən İstanbula, İstanbuldan Xəzər dənizi sahillərinə qədər uzanan ticarət yolları Naxçıvan ərazisində kəsişirdi. Bu vəziyyət bölgədə yaşayan tacirlərin istər tranzit, istərsə də xarici ticarət əlaqələrində fəal iştirak etmələrinə gətirib çıxarırdı. Naxçıvanda istehsal olunmuş barama, pambıq, pambıq parçalar, misgərlik məmulatları Qərbi Avropa ölkələrinə, Rusiyaya, Türkiyəyə, İrana və Hindistana ixrac olunurdu. Müxtəlif dövrlərdə istehsal edilmiş ipək və pambıq parçalar qonşu xanlıqlarda və ölkələrdə, habelə Rusiya bazarlarında ən rəvac mallardan hesab edilirdi.[153]

Yarımfəsildə qeyd olunmuşdur ki, XVIII əsrdə və XIX əsrin əvvəllərində baş vermiş hərbi və siyasi təlatümlər Naxçıvan diyarının xarici və tranzit ticarət əlaqələrinə ağır zərbə endirmişdi. Yalnız Rusiya işğallarının gedişində və başa çatmasından sonra bu sahədə müəyyən dəyişikliklər baş verdi. Rusiya hökuməti Cənubi Qafqazda rus ticarət kapitalının mövqelərini möhkəmləndirmək məqsədilə 1821-ci ildə güzəştli ticarət tarifi tətbiq etdi.[154] Bu tarif bütün Cənubi Qafqazda olduğu kimi, Naxçıvanda da xarici və tranzit ticarətin inkişafına müsbət təsir göstərdi. Lakin çar II Nikolayın 1831-ci ildə verdiyi "Zaqafqaziya diyarında gömrük və ticarət işinin təşkili haqqında Əsasnamə" Qərbi Avropadan Cənubi Qafqaza mal gətirilməsini və onun üçüncü ölkəyə aparılmasını qadağan etdi.[155] Bu "Əsasnamə" Naxçıvan diyarının İran və Qərbi Avropa ölkələri ilə aparılan tranzit ticarətdəki mövqeyini xeyli zəiflətdi.

---

[152] Yenə orada, s.98-101

[153] Əliyev F., Əliyev M. Göstərilən əsəri. s.44; Şahverdiyev Z. Göstərilən əsəri, s.60

[154] Кавказский календарь на 1871 год. Тифлис: 1870, с.871-872

[155] Русско-иранская торговля 30-50-е годы XIX века. Сборник документов. Составитель Н.Г.Куканова, Москва: Главная Редакция восточной Литературы, 1984, с.293

Naxçıvan diyarının xarici ticarət əlaqələrində İran mühüm yer tuturdu. Bu əlaqələrdə Naxçıvan və Ordubad şəhərləri ilə yanaşı, Əylis, Əndəmiç və Varagird kəndlərindən olan tacirlər də fəal iştirak edirdilər. Təxminən 30 nəfər ordubadlı tacir ancaq Təbrizlə ticarət əlaqələri qurmuşdu.[156]

Naxçıvan diyarının İranla ticarət əlaqələri, əsasən Araz çayı üzərində yerləşən Culfa və Ordubad gömrükxanaları vasitəsilə həyata keçirilirdi. Mənbələrdə 1858-1863-cü ilə aid məlumatlardan aydın olur ki, diyarın İranla aparılan ticarətində üstünlük sonuncunun tərəfində idi. Göstərilən illərdə İrandan diyara 5.012.574 rubl dəyərində mal gətirilmişdisə, diyardan İrana cəmi 361.980 rubl dəyərində mal aparılmışdı.[157] Bunun səbəbini gətirilən Avropa mənşəli malların kütləvi şəkildə diyara idxal edilməsində axtarmaq lazımdır.

Onu da göstərmək lazımdır ki, İrana aparılan mallar arasında Naxçıvan diyarının özündə istehsal edilmiş məhsulların xüsusi çəkisini müəyyənləşdirmək olduqca çətindir. Lakin inamla söyləmək olar ki, Culfa vasitəsilə İrana aparılan malların mütləq əksəriyyətini tranzit xarakterli yüklər təşkil edirdi. Bundan fərqli olaraq, Ordubadın İranla ticarətində yerli istehsalın məshulu olan mallar üstünlük təşkil edirdi. 1866-cı ildə Ordubad gömrükxanası vasitəsilə İrana ixrac edilmiş 48.851 rubl dəyərində məhsulun, demək olar ki, hamısı Ordubadın özündə istehsal edilmişdi. Bu məhsulun 43.590 rublunu xam mis, 4257 rublunu isə bölgənin özündə istehsal edilmiş əkinçilik və sənətkarlıq məhsulları təşkil etmişdi.[158]

XIX əsrin sonu-XX əsrin əvvəllərində Naxçıvan diyarının ixrac yönümlü ticarətində yerli istehsalın məhsulu olan pambıq, xam ipək, baramaqurdu, meyvə, xalça məmulatı kimi malların payı xeyli artmışdı. Xam ipək və baramaqurdu ixracının həcmində artım xüsusilə çox idi. Təkcə 1873-cü ildə Ordubaddan Rusiyanın ipək fabrikinə 340 min rubl dəyərində xam ipək göndərilmişdi.[159] Burada istehsal edilmiş baramaqurdu toxumu ən çox Şimali Qafqaza, Türküstana və İrana ixrac edilirdi. Ordubadda istehsal edilən quru meyvə bütün İrəvan quberniyası ilə yanaşı, Tiflisə, Aleksandropola və Nuxaya göndərilirdi. XIX əsrin 90-cı illərində Ordubaddan təkcə İrəvan şəhərinə göndərilən ərik qurusunun illik həcmi 15 min pud təşkil edirdi.[160]

---

156 ОРВЗК. ч.IV, Санкт Петербург: 1836, с.354

157 Сборник статистических сведений о Кавказе. т.I, с.66

158 Сборник статистических сведений о Кавказе. т. I, с.66

159 Vahidova X. Göstərilən əsəri, s.96-97

160 Сборник сведений о Кавказе. т. VII, Тифлис:1899, с.158

1908-ci ildə Uluxanlı-Culfa dəmir yolu xəttinin istifadəyə verilməsi bir sıra yerli məhsulların, o cümlədən xalça məmulatlarının, pambığın, çəltiyin, duz istehsalının və ixracının artmasına güclü təkan verdi. Bu özünü xalça məmulatı ixracında daha aydın göstərirdi. Belə ki, 1907-1908-ci illərdə Naxçıvan diyarından xarici ölkələrə 5,9 mln rubl dəyərində xalça məmulatı ixrac edilmişdisə, 1912-1913-cü illərdə onun həcmi iki dəfədən çox artaraq 12 mln rubla çatmışdı.[161] Pambıq parça ixracının həcmi isə 1908-ci ildən 1913-cü ilə qədər 4 dəfə artaraq 82 min puddan 318 min puda çatmışdı.[162]

Uluxanlı-Culfa dəmir yolu xəttinin istifadəyə verilməsi Naxçıvan diyarı vasitəsilə aparılan tranzit ticarətin həcminin kəskin şəkildə artmasına gətirib çıxardı. Rusiya-İran ticarət əməliyyatları Naxçıvan diyarının ərazisində yerləşən Şahtaxtı, Culfa, Ordubad, Bulqan və Alışarlı gömrük-karantin məntəqələri vasitəsilə həyata keçirilirdi. Yarımfəsildə bu məntəqələr vasitəsilə idxal və ixrac əməliyyatlarının həcmini özündə əks etdirən bir neçə cədvəl verilmişdir. Bu cədvəllərdə göstərilən məlumatlar əsasında belə nəticəyə gəlinmişdir ki, Naxçıvan diyarı vasitəsilə aparılan Rusiya-İran tranzit ticarətində ixrac idxalı üstələyirdi. Bunu 1913-cü ilə aid statistik məlumatlar da təsdiq edir. Belə ki, 1913-cü ildə göstərilən sərhəd məntəqələri vasitəsilə həyata keçirilən mal dövriyyəsinin ümumi həcmi 24.400.000 rubl təşkil etmişdi. Bu məbləğin 6.200.000 rublu idxalın, 18.200.000 rublu isə ixracın payına düşmüşdü.

Dissertasiyanın **"Nəticə"** hissəsində aparılmış tədqiqata yekun vurulmuş, əldə edilmiş nəticələr söylənilmişdir. Tədqiq olunan problemlə əlaqədar belə bir qənaətə gəlinmişdir ki, Naxçıvan diyarında sənət istehsalı və ticarət əvvəlki dövrlərlə müqayisədə XVIII-XX əsrin əvvəllərində xeyli tənəzzülə uğrasa da, əhalinin əsas məşğuliyyət sahəsi kimi öz əhəmiyyətini saxlamışdı.

Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:


1. Naxçıvan xalçaçıları. Bakı, "Elm", 2013, 154 s.
2. Nakhchivan carpet weavers. New-York, "Hudson Publishing", 2014, 154 p.
3. Нахчыванские ковроткачи. Москва, «Бюджет», 2014, 280 p.
4. Naxçıvan diyarında sənətkarlıq və ticarət (XVIII-XIX əsrin əvvəlləri). Bakı: "Elm", 2017, 268 s.


[161] Краткий обзор коммерческой деятельности Закавказских железных дорог за 1908 г., с.84; за 1913 г., с.202

[162] Əliyev Q. Göstərilən əsəri, s.162

5. Naxçıvan xalçaçılığı: ənənə və müasirlik. (Carpet weaving in Nakhchivan: tradition and modernity; Ковроткачество Нахчывана: Традиция и современность) (Azərbaycan, rus, ingilis dillərində). Bakı: Elm, 2017, 284 s.
6. Master features of Nakhchivan carpets // "Azərbaycan xalçaları", 2013, №8, cild: 3, p.23-33.
7. Naxçıvan diyarında xalçaçılıq sənətinin inkişafı tarixindən // "Sivilizasiya". Bakı: Bakı Avrasiya Universitetinin nəşriyyatı, 10/2015, s.196-201.
8. XVIII-XX əsrin əvvəllərində Naxçıvan diyarında dabbağlıq sənətinin vəziyyəti // "Azərbaycan xalçaları", 2015, cild: 5, №17, s. 46-51.
9. Ordubad şəhərinin iqtisadi həyatında bağçılığın rolu // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, 1/2016, s. 195-199.
10. Rus müstəmləkəçiliyi dövründə Naxçıvan şəhərinin sosial-iqtisadi həyatı // "Sivilizasiya". Bakı: Bakı Avrasiya Universitetinin nəşriyyatı, 31/3/2016, s.74-78.
11. Naxçıvan diyarında ticarət-sənətkarlıq obyektlərinin tikintisi (XVIII-XX əsrin əvvəlləri) // "Sivilizasiya". Bakı: Bakı Avrasiya Universitetinin nəşriyyatı, 4/28-30/2016, s. 28-33.
12. XVIII-XX əsrin əvvəllərində Ordubad şəhərinin əhalisi // Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri, 2016, №45, s.90-95.
13. Ordubad şəhərinin son orta əsrlər dövrü tarixindən // Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri, 2016, №45, s. 96-100.
14. Naxçıvan diyarında ticarət yollarının vəziyyəti // Lənkəran Dövlət Universitetinin Elmi Xəbərləri, Humanitar Elmlər Seriyası, 2016, s.180-187
15. XVIII-XX əsrin əvvəllərində Ordubad şəhərinin iqtisadi həyatına dair // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri. İctimai Elmlər Seriyası, 2016, №5(79), s.13-17.
16. Naxçıvan diyarında gön-dəri məmulatı istehsalı (XVIII-XX əsrin əvvəlləri) // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və Humanitar Elmlər Seriyası, 2016, №3, s.48-54.
17. Naxçıvan diyarında misgərlik və zərgərlik sənətlərinin inkişaf tarixindən // "Azərbaycan xalçaları", 2016, cild: 6, №18, s. 68-73.
18. Naxçıvan diyarında tikinti sənətinin inkişaf tarixindən // "Azərbaycan xalçaları", 2016, cild: 6, №19, s.68-73.
19. XVIII-XIX əsrin əvvəllərində Naxçıvan diyarında dağ-mədən sənayesinin vəziyyəti // "Azərbaycan xalçaları", 2016, cild: 6, №20, s.36-43.
20. Naxçıvan şəhəri xanlıqlar dövründə // Tarix və onun problemləri, 2016, №4, s. 46-50.

21. Naxçıvan diyarında boyaqçılıq sənəti (XVIII-XX əsrin əvvəlləri) // AMEA-nın Xəbərləri. İctimai Elmlər Seriyası, 2016, №1, s.159-165.
22. XVIII-XX əsrin əvvəllərində Naxçıvan diyarında dəmirçilik və silahsazlıq // AMEA-nın Xəbərləri. İctimai Elmlər Seriyası, 2016, №4, s.109-113
23. Naxçıvan diyarında məscid tikintisi tarixindən (XVIII-XX əsrin əvvəlləri) // Tarix və onun problemləri, 2016, №3, s.337-342.
24. “Naxçıvan sancağının müfəssəl dəftəri” Naxçıvan şəhərinin sosial-iqtisadi tarixinin öyrənilməsi üçün mənbə kimi // Gəncə Dövlət Universitetinin Xəbərləri, 2016, №3, s.242-246.
25. XVIII-XX əsrin əvvəllərində Naxçıvan diyarında xarici və tranzit ticarətin vəziyyəti // “Sivilizasiya”. Bakı: Bakı Avrasiya Universitetinin nəşriyyatı, №2/34/2017, cild 6, s.113-120.
26. Naxçıvan diyarında dulusçuluq sənətinin inkişafı tarixindən (XVIII-XIX əsrin əvvəllərində) // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və Humanitar Elmlər Seriyası, 2017, №1, s.140-146.
27. Naxçıvan diyarında xalçaçılıq sənətinin inkişafına dair / III Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumu. Niğde Universiteti, Qazax Dövlət Qızlar Universiteti, M.Akmulla Başqırd Dövlət Pedaqoji Universiteti, Bakı Avrasiya Universiteti, Yunis Əmrə İnstitutu. Bakı, 25-27 may, 2016, s. 377-380.
28. Из истории гончарного дела в Нахчыванском крае (XIII-начало XX века) // «Кавказ и мир», 2017, №22, стр.160-164.
29. Carpet weaving conditions in Nakhchivan in the 18th and early 20th century // International Journal of Information Research and Review. Impact Factor: 4/251. Vol.03, Issue 12, December 2016, pp. 3434-3437.
30. From the nineteenth century history of Ordubad city // Confrontation Literary magazine. Hundson, USA – 2018, Issue:123, No.1, 2018-Spring, pp. 37-43.
31. نسج السجاد في ناخيتشيفان التقاليد والحداثة. باكو – علم – ٢٠١٧ باكو – علم – ٢٠١٧. 250ص
32. XVIII-XX əsrin əvvəllərində Naxçıvan diyarında daxili ticarətin vəziyyəti // Azərbaycan Dövlət Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası. 2016, №2, s.166-176.

**Видади Айдын оглы Мурадов**

# Ремесло и торговля в Нахчыванском крае в XVIII-начале XX века

## Резюме

Различные периоды и проблемы истории древней территории Азербайджана – Нахчыванского края, долгое время находятся в центре внимания исследователей. В тоже время, состояние таких областей хозяйственной деятельности, как ремесленное производство и торговля в XVIII – начале XX века в экономической жизни края, до сих пор не было объектом специального исследования. И хотя в сравнении с предыдущими веками в это время в торговле и ремесленном производстве наблюдался определенный спад, данные виды деятельности продолжали удерживать свои ведущие позиции в экономической жизни края.

Диссертация состоит из введения, пяти глав, вывода, списка использованной литературы и источников. Во введении обосновывается актуальность темы, дается краткий обзор использованной литературы и источников. В I главе, наряду с вопросами политической жизни и административно-территориального деления, освещено положение в различных областях земледелия и системе орошения, рассмотрены формы земельной собственности и налоги, социальный и национальный состав населения в крае в XVIII – начале XX века.

Во II главе диссертации освещается место и роль городов Нахчыванского края в развитие ремесла и торговли. Здесь, как и в других регионах Азербайджана, ремесленное производство и торговля в в основном развивались в городах. Несмотря на то, что в результате многолетних войн город Нахчыван подвергался серьезным разрушениям, в рассматриваемы период он сохранил свои позиции в качестве центра торговли и ремесленнего производства. Небольшой по величине город Ордубад также играл важную роль в экономической жизни своего региона.

В главах III и IV освещено состояние таких областей ремесленного производства, как ткачество, ковроделие, кожевенное и красильное дело, строительство, обработка металлов, гончарство и горнодобывающая промышленность. Обилие сырьевых ресурсов и высокая потребность в ремесленных изделиях, с одной стороны, и сформированные за

многие века богатые практические навыки, с другой стороны, создавали благоприятные условия для развития этих областей ремесленного производства.

В V главе диссертации основное внимание уделено изучению состояния торговых путей, проходивших через территорию Нахчыванского края, выяснению причин регресса, наблюдаемого во внутренней и внешней торговле, определению ассортимента вывозимых и ввозимых товаров. Превращение после Туркманчайского договора в одну из окраин гигантской Российской империи, длительное нахождение вдали от основных торговых путей в значительной степени тормозило развитие внутренней и внешней торговли в крае. В то же время, с ведением в строй в 1908 году железнодорожной линии Улуханлы-Джульфа Нахчыванский край стал играть важную роль в транзитной торговли между Россией и Ираном.

**Vidadi Aydin oglu Muradov**

# The situation of artisanship and trade in Nakhchivan district 18th century and early 20th century

## Summary

Different periods and problems of the history of Nakhchivan district, an ancient land of Azerbaijan, have long been the focus of researchers' attention. However, the situation of the areas of the district's economic life like craftsmanship and trade in the 18th and early 20th centuries have not been the subject of a special study so far. Although trade and craftsmanship declined to a certain degree compared to previous centuries, they maintained their position as leading areas of the district's economic life.

The introduction of the scientific work consists of five chapters, a conclusion, and the list of literature and sources that were used. The urgency of the issue is substantiated and brief summary of the literature and sources are included. Along with political life and the administrative-territorial division of the district at the beginning of the 18th century, issues like the status of the various sectors of agriculture and irrigation system, land ownership forms and taxes, social and national composition of the population are highlighted in the first chapter.

The place and role of the cities of Nakhchivan province in the development of craftsmanship and trade are highlighted in the second chapter of the scientific work. As in other districts of Azerbaijan, artisanship and trade developed mostly in the cities in Nakhchivan as well. Nakhchivan city maintained its status as the center of artisanship and trade during this period regardless of the serious destructions it was subjected to as a result of long lasting wars. Despite being a small town, Ordubad city played an important role in the economic life of the district.

The situation of the fields of art production like fabric weaving, carpet making, leather products manufacturing, dyeing, construction, metalwork, pottery, and mining industry in the III and IV chapters of the scientific work. The abundance of raw materials and high demand for artisanship products on the one hand, and rich production habits formed along centuries on the other hand created favorable conditions for the development of these art fields.

The main focus in the V chapter of the scientific work is on the study of the conditions of trade routes passing through Nakhchivan district, clari-

fication of decline observed in the domestic and foreign trade, and the identification of kinds of exported and imported goods. Turning into one of the remote areas of the giant Russian Empire following Turkmenchay Treaty and being located far away from the major trade routes delayed the development of domestic and foreign trade. However, in 1908, following the construction of Ulukhanli-Julfa railroad, Nakhchivan began to play an important role in the Russian-Iranian transit trade.

Çapa imzalanmışdır: 25.04.2018
Formatı: 60/84, 16/1
Sifariş: 90
Sayı: 100

AMEA Naxçıvan Bölməsinin “Tusi” nəşriyyatında çap edilmişdir.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**НАХЧЫВАНСКОЕ ОТДЕЛЕНИЕ**

***На правах рукописи***

**ВИДАДИ АЙДЫН ОГЛЫ МУРАДОВ**

# РЕМЕСЛО И ТОРГОВЛЯ В НАХЧЫВАНСКОМ КРАЕ В XVIII-НАЧАЛЕ XX ВЕКА

**Специальность: 5503.02 – Отечественная история**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание научной степени доктора наук по истории**

**НАХЧЫВАН – 2018**